HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 15 (909) ▪ 25 aprel 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Vətənə, xalqa və dövlətə sədaqət andı

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi

**Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Mərasimdə dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşılayıblar.**

Sonra ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olunub. Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər. Səhnəyə dəvət olunan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrinin təsdiq edildiyini və cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti elan olunduğunu bəyan edib.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içib: «Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!».

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içib: «Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam».

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpüb.

**Davamı 2-ci səhifədə**




# Milli Məclis Novruz Məmmədovun Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunmasına razılıq verib

Aprelin 21-də Azərbaycan Respublikası Milli Məclisinin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov aprelin 11-də demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkilərində İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin dövlətimizin başçısının xalqımız qarşısındakı əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin və ona sonsuz inamın ifadəsi olduğunu söyləyib.



Sonra Prezident İlham Əliyevin «Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi» haqqında məsələyə baxılması barədə məktubu oxunub. Deputatlar Novruz Məmmədovun insani keyfiyyətləri və öz fəaliyyəti ilə hər zaman Azərbaycanın dövlətçiliyi naminə gördüyü işləri yüksək qiymətləndiriblər. Qeyd olunub ki, Azərbaycanın Baş naziri vəzifəsinə namizədliyi irəli sürülmüş Novruz Məmmədov diplomatik karyerasında ölkəmizin daxili və xarici siyasəti, dövlətimizin başçısının apardığı iqtisadi və sosial siyasətlə bağlı dərin məzmunlu çıxışların, məqalələrin müəllifidir. O, bütün fəaliyyəti dövründə dövlətimizin milli strategiyasına, Ümummilli Liderə, Prezidentə sədaqət nümunəsi göstərib.

Müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən Baş nazir Novruz Məmmədov ona göstərilən bu yüksək etimada görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib, bu çətin, lakin şərəfli vəzifədə müstəqil Azərbaycanda sabitliyin, təhlükəsizliyin və uğurlu dinamik inkişafın davam etdirilməsi naminə bütün səylərini əsirgəməyəcəyini vurğulayıb: «Çalışacağam ki, bu məsuliyyətli vəzifəni Azərbaycan Prezidentinin rəhbərliyi ilə, dövlət və hökumət strukturları, eyni zamanda, Milli Məclis ilə sıx əməkdaşlıq şəraitində yerinə yetirim. Çalışacağam ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu Azərbaycan Prezidentinin rəhbərliyi ilə davam etdirək».

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan artıq çox böyük layihələr həyata keçirib, siyasət, iqtisadiyyat, enerji, idman, mədəniyyət sahələrində böyük uğurlara imza atıb. Azərbaycan Prezidenti daxili və xarici siyasəti, beynəlxalq münasibətlər sahəsini mükəmməl bilən müdrik dövlət xadimidir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, müstəqil Azərbaycan öz tarixində ən möhtəşəm dövrünü yaşayır.

Milli Məclisin sədri Oqtay Əsədov sonda bir daha Novruz Məmmədovu təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Dərin ehtiramla...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil qoyub, onun ruhu qarşısında baş əyib.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, eləcə də tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə gül dəstələri düzülüb.

Daha sonra Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edib. Dövlətimizin başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyub.

Həmin gün Prezident İlham Əliyev və ailə üzvləri Dövlət Bayrağı Meydanında da olublar. Fəxri qarovul dəstəsinin rəisi raport verib, dövlətimizin başçısı əsgərləri salamlayıb. Dövlət himni səsləndirildikdən sonra Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açılıb. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçib.

# Rəsmi xronika

- Prezident İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib. Söhbət zamanı Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Bildirilib ki, bütün sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində də əməkdaşlıq uğurla davam edir. Sergey Narışkin İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, bunu Azərbaycan xalqının böyük etimadı kimi dəyərləndirərək seçkilərin nəticələrini həm də Azərbaycan xalqının qələbəsi kimi qiymətləndirib. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev həm Azərbaycanda, həm də Rusiyada keçirilən son prezident seçkilərinə toxunaraq qeyd edib ki, bütün bunlar hər iki ölkənin rəhbərliyi tərəfindən həyata keçirilən siyasətə xalqlarımızın verdiyi dəstəyin nümayişidir.
- Aprelin 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunub.
  Maksim Oreşkin prezident seçkilərində inamlı qələbəsi münasibətilə dövlətimizin başçısını təbrik edib, bildirib ki, seçkilərin nəticələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi kursa xalq tərəfindən verilən güclü dəstəyin təzahürüdür.
- Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub. Metropoliteninin «İçərişəhər» stansiyasına gələn dövlətimizin başçısı yeni metro vaqonlarına baxıb, yeni qatarla metronun «İçərişəhər» stansiyasından «Nəriman Nərimanov» stansiyasına gedib. Dövlətimizin başçısına bildirilib ki, yeni qatarlar mütərəqqi texnologiya ilə təchiz olunmaqla müasir idarəetmə sisteminə malikdir, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin etmək iqtidarına malikdir.

# Dövlət başçısı Nazirlər Kabinetinin yeni tərkibi haqqında sərəncamlar imzalayıb

Prezident İlham Əliyevin 21 aprel 2018-ci il tarixli sərəncamı ilə Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikasının Baş naziri təyin edilib.

Dövlət başçısının digər sərəncamı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi müəyyənləşdirilib. Sərəncama əsasən Yaqub Abdulla oğlu Eyyubov Baş nazirin birinci müavini, Əli Cavad oğlu Əhmədov, Əli Şamil oğlu Həsənov və Hacıbala İbrahim oğlu Abutalıbov Baş nazirin müavinləri, Ramil İdris oğlu Usubov daxili işlər naziri, Pərviz Oqtay oğlu Şahbazov energetika naziri, Fikrət Fərrux oğlu Məmmədov ədliyyə naziri, Sahil Rafiq oğlu Babayev əmək və əhalinin sosial müdafiəsi naziri, Kəmaləddin Fəttah oğlu Heydərov fövqəladə hallar naziri, Elmar Məhərrəm oğlu Məmmədyarov xarici işlər naziri, Şahin Abdulla oğlu Mustafayev iqtisadiyyat naziri, İnam İmdad oğlu Kərimov kənd təsərrüfatı naziri, Samir Rauf oğlu Şərifov maliyyə naziri, Zakir Əsgər oğlu Həsənov müdafiə naziri, Ramin Namiq oğlu Quluzadə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, Mikayıl Çingiz oğlu Cabbarov vergilər naziri təyin olunublar.

Prezident İlham Əliyev, həmçinin, Samir Rafiq oğlu Nuriyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Rövşən Şükür oğlu Rzayevi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Elçin İsağa oğlu Quliyevi Dövlət Sərhəd Xidmətinin rəisi, Mədət Qəzənfər oğlu Quliyevi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Orxan Sedyar oğlu Sultanovu Xarici Kəşfiyyat Xidmətinin rəisi təyin edib.

Azərbaycan Prezidentinin 23 aprel tarixli sərəncamı ilə aşağıdakı şəxslər də Nazirlər Kabinetinin üzvləri təyin olunublar: Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri - Muxtar Bahadur oğlu Babayev; Azərbaycan Respublikasının gənclər və idman naziri - Azad Arif oğlu Rəhimov; Azərbaycan Respublikasının mədəniyyət naziri - Əbülfəs Mürsəl oğlu Qarayev; Azərbaycan Respublikasının müdafiə sənayesi naziri - Yavər Talıb oğlu Camalov; Azərbaycan Respublikasının səhiyyə naziri - Oqtay Kazım oğlu Şirəliyev; Azərbaycan Respublikasının təhsil naziri - Ceyhun Əziz oğlu Bayramov; Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri - Hicran Kamran qızı Hüseynova; Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri - Fuad Rauf oğlu Muradov; Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri - Mübariz Qəhrəman oğlu Qurbanlı; Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri - Səfər Məmməd oğlu Mehdiyev; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri - Tahir Yaqub oğlu Budaqov; Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri - Kərəm Əvəz oğlu Həsənov; Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri - Fuad Hümbət oğlu Nağıyev; Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri - Qoşqar İlahi oğlu Təhməzli; Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi - Vüsal Əfqan oğlu Hüseynov; Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi - Arzu Yusif oğlu Rəhimov.

Sosial rifah, şəffaf iqtisadiyyat, qüdrətli ordu, xalq-iqtidar birliyi... səh. 2

İntizamlı vergi ödəyiciləri fərqləndirilir səh. 3

1918-20-ci illərdə Azərbaycanın vergi siyasəti səh. 4

Ticarət Festivalının imkanlarından hər kəs yararlana biləcək səh. 4

# Sosial rifah, şəffaf iqtisadiyyat, qüdrətli ordu, xalq-iqtidar birliyi...

## Müasir müstəqil Azərbaycanın inkişaf parametrləri

**Əvvəli 1-ci səhifədə**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söyləyib.

İlk öncə bu seçkilərdə göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev bu dəstəyi daim hiss etdiyini və ondan güc aldığını bildirib. Prezident seçkilərinin xalqın iradəsini əks etdirdiyini qeyd edən dövlətimizin başçısı bildirib ki, yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, «exit-poll»lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir: «Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur».

Son 15 il ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini diqqətə çatdıran Prezident İlham Əliyev ölkədə siyasi islahatların dərinləşdirilərək bütün azadlıqların - söz azadlığının, mətbuat azadlığının, sərbəst toplaşma azadlığının, siyasi fəaliyyət azadlığının təmin edildiyini vurğulayıb: «Son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və prezident seçkiləri kampaniyası bunu bir daha göstərir. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm.

O ki qaldı antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır».

Qeyd olunub ki, ölkəmizdə azərbaycançılıq məfkurəsi tam bərqərar olub, xalqımız vahid milli ideya ətrafında birləşib. Bununla yanaşı, Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır: «Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır».

Bu illər ərzində Azərbaycanın beynəlxalq aləmdə böyük uğurlara imza atdığını deyən dövlət başçısı ölkəmizin dünyadakı mövqeyinin möhkəmləndiyini və çox müsbət beynəlxalq reputasiyaya malik olduğunu bildirib: «Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir».

Beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin çox fəal iştirak etdiyini qeyd edən Prezident İlham Əliyev xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ədalətli mövqeyimizin dəstəkləndiyini diqqətə çatdırıb: «Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma «Dağlıq Qarabağ»ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma «referendum»u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər». Dağlıq Qarabağın Azərbaycanın tarixi torpağı olduğunu bir daha vurğulayan dövlətimizin başçısı münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalı olduğunu bəyan edib: «Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın. Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir».

Azərbaycanda ordu quruculuğuna xüsusi önəm verilməsinin vacibliyini qeyd edən Prezident İlham Əliyev bildirib ki, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir: «Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq. Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq».

Azərbaycan dövlətinin sosial-iqtisadi islahatlara xüsusi önəm verdiyini deyən Prezident İlham Əliyev növbəti illərdə də ciddi islahatlar aparılacağını, yoxsulluğa qarşı mübarizənin gücləndiriləcəyini, yeni iş yerlərinin açılacağını və nəticədə əhalinin rifah halının daha da yaxşılaşacağına əminliyini ifadə edib. Qeyd olunub ki, ölkədə korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. Azərbaycanda yaradılan «ASAN xidmət» bu sahədə xüsusi yer tutur.

Dövlətimizin başçısı ölkə iqtisadiyyatının hazırkı durumu və bu sahədə qarşıda duran vəzifələrə toxunaraq bildirib ki, iqtisadi inkişaf ən ümdə məsələlərdəndir: «Mən dəfələrlə demişəm və həyat bunu göstərir: yalnız iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir.

Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır - bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub, çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni, bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir.

Bu gün də Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlar zamanı da bu böhranlardan ən az itkilərlə çıxa bilmişik. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır. Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər». Bu illər ərzində sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verildiyini vurğulan dövlət başçısı bildirib ki, həmin kreditlər hesabına və sahibkarların öz vəsaiti hesabına yüzlərlə, bəlkə də minlərlə yeni müəssisə yaradılıb və qeyri-neft sektorunun inkişafı təmin edilib: «Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Təbii ki, son 15 il ərzində bu sahəyə xüsusi diqqət göstərilirdi və bundan sonra da göstəriləcək. Bu illər ərzində biz doğrudan da tarixi nailiyyətlərə nail ola bilmişik. Ulu öndər Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və beləliklə, biz böyük gəlirlər əldə etməyə başlamışdıq. Ondan bir il sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirmişdir. Hazırda biz Cənub Qaz Dəhlizinin icrası ilə məşğuluq. Bu layihə bizim təşəbbüsümüzlə həyata keçirilir. 2012-ci ildə bu layihəyə start verildi. Ondan əvvəlki illər isə demək olar ki, nəticəsiz keçmişdir. Çünki Azərbaycan qazını böyük həcmlərlə Avropa bazarlarına çıxarmaq üçün bir neçə il ərzində müzakirələr gedirdi, amma heç bir nəticə yox idi. Biz bunu görəndə artıq bildik ki, ancaq özümüzə güvənməliyik və tarixi qərarlar qəbul edildi. Çox çətin layihəni uğurla icra edirik. Bu, həm iqtisadi, həm texniki cəhətdən maliyyə tutumlu layihədir. Cənub Qaz Dəhlizinə qoyulan sərmayə 40 milyard dollara bərabərdir. Bu vəsaitin böyük hissəsi xarici tərəfdaşlar, banklar tərəfindən qoyulur. Ona görə xüsusilə bu da dünyada mövcud olan iqtisadi böhrana təsadüf etdi və bu vəsaiti ölkəmizə cəlb etmək o qədər də asan məsələ deyildi. Biz, əlbəttə, diplomatik, siyasi və iqtisadi yollarla buna nail ola bilmişik. «Cənub Qaz Dəhlizi» layihələrinin üçü bu il istifadəyə veriləcəkdir - «Şahdəniz-2», «Cənubi Qafqaz Kəməri» və TANAP. Biz artıq Avropanın, Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik. Biz bu illər ərzində «Azəri-Çıraq-Günəşli» yatağının gələcək işlənilməsi ilə bağlı önəmli addımlar atmışıq, yeni kontrakt imzalanıb. Kontraktın müddəti 2050-ci ilə qədər uzadılıb və biz öz payımızı artıra bilmişik. Eyni zamanda, 3,6 milyard dollar bonus almışıq və onun birinci hissəsi artıq bu il xəzinəyə daxil olub. Növbəti illərdə biz neft-qaz sektorunda digər perspektiv strukturlar ətrafında tərəfdaşlarla işləyəcəyik. Demək olar ki, neft-qaz sektorunda Azərbaycan istədiyinə artıq nail olubdur və bir-iki ildən sonra Cənub Qaz Dəhlizi tam istifadəyə veriləcəkdir».

> İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər



Dövlətimizin başçısı qeyd edib ki, indiyədək qazanılan uğurların hamısını bir-bir sadalamaq mümkün deyil. Bu illər ərzində kənd təsərrüfatı, nəqliyyat, su və qazlaşdırma ilə bağlı böyük nailiyyətlərə imza atılıb. Prezident İlham Əliyev çıxışında idman sahəsində əldə olunan nailiyyətlərdən də söz açıb: «Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında böyük qələbələr qazanmışlar. Avropa Oyunlarında biz ikinci yerə layiq görüldük, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında birinci yerə nail olduq. Biz Rio Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq, biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Bir daha qayıdıram çıxışımın əvvəlinə, xalq-iqtidar birliyi bütün bu uğurları mümkün edir».

Qarşıda hələ görüləsi çox işlərin olduğunu deyən Prezident İlham Əliyev əldə edilmiş nailiyyətlərlə kifayətlənməyəcəyimizi diqqətə çatdırıb: «Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar».

Çıxışının sonunda bu illər ərzində qazanılan uğurların xalq-iqtidar birliyinin sarsılmazlığı nəticəsində mümkün olduğunu bir daha bəyan edən Prezident İlham Əliyev müstəqil dövlətimizin daha da çiçəklənməsi naminə bu birliyin qorunub saxlanmasının vacibliyini önə çəkib: «Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Eşq olsun Azərbaycan xalqına!
Yaşasın Azərbaycan!».

# İntizamlı vergi ödəyiciləri fərqləndirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Vergi Məcəlləsinin və bir sıra digər qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq hökumətə təqdim edilməsi nəzərdə tutulur.**

Vergilər Nazirliyi bütün təklifləri dəyərləndirərək qanunvericilikdə müvafiq dəyişikliklərin həyata keçirilməsini təklif edəcək. Bu dəyişikliklərin əsas istiqamətlərindən biri də kiçik və orta sahibkarlığa tətbiq edilən vergi yükünün yüngülləşdirilməsi, eləcə də vergi inzibatçılığının əhəmiyyətli dərəcədə təkmilləşdirilməsidir. Bu isə ölkədə sahibkarlıq fəaliyyətinə, xüsusilə də kiçik və mikro sahibkarlara ayrıca dəstək verilməsi ilə bağlıdır. Orta və iri müəssisələrə gəldikdə, burada əsas istiqamətlər həmin subyektlərin fəaliyyətində daxili hesabatlılığın və şəffaflığın səviyyəsinin artırılması və vergi qanunverciliyinin tələblərinə uyğunlaşdırılmasıdır. Aparılan islahatlar sahibkarların rəqabət qabiliyyətinin artmasına və vergi ödənişlərinin sabitliyinin öncədən müəyyənləşdirilməsinə imkan verəcək. Bu isə öz növbəsində dövlət büdcəsinin cari xərclərinin vaxtlı-vaxtında yerinə yetirilməsi üçün zəmin yaradacaq.

Vicdanlı vergi ödəyicisi ilə qanunu pozmağa çalışan, vergidən yayınmağa cəhd edən vergi ödəyiciləri fərqləndiriləcək, öz işini qanuna uyğun quran bütün sahibkarların fəaliyyətinin daha rahat və şəffaf şəkildə həyata keçirilməsi üçün münbit zəmin yaradılacaqdır. Bununla da vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılmasına, sahibkarlara əlverişli şəraitin yaradılmasına, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunması nəzərdə tutulur.

Vergilər Nazirliyinin bu strategiyası ilk növbədə intizamlı vergi ödəyiciləri ilə işin müasir tələblər səviyyəsində qurulmasını nəzərdə tutan bir sistemin yaradılması ilə əlaqədardır. Vergi öhdəliklərini vaxtında yerinə yetirən ödəyicilərə xüsusi münasibətin göstərilməsi beynəlxalq praktikada da geniş yayılıb. Əsas mahiyyət isə bundan ibarətdir ki, intizamlı vergi ödəyicilərinə xidmət göstərilərkən onlar vergi öhdəliyini yerinə yetirməyən, problemli ödəyicidən, sözün müsbət mənasında, fərqləndirilməlidir. Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla sərt, lakin qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə əməl etməli, ikili mühasibatın aparılması, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, vergidən yayınma halları aradan qaldırılmalıdır. Vergi ödəyicilərindən intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

Vergilər Nazirliyi isə sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistemi, vergi ödəyicilərinə göstərilən xidmətləri ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun şəkildə təkmilləşdirmək əzmindədir. Barəsində şikayətlər daxil olan vergi məmurları haqqında ölçü götürülməsi, peşəkarların irəli çəkilməsi ilə bağlı tədbirlər davam etdirilir. Nazirlik ödəyicilərə keyfiyyətli xidmətlər, qarşılıqlı etimad təklif edir, onları eşitməyə, qanuni tələblərinin həllinə kömək göstərməyə hazırdır.

Vergi sisteminin əsas subyektlərindən olan vergi ödəyicisi və vergi orqanı arasında qarşılıqlı etimada və əməkdaşlığa söykənən münasibətlərin formalaşması vergilərin məcburi ödənilməsindən könüllü ödənilməsinə keçidi sürətləndirəcək. Vergilər Nazirliyi vergi ödəyicilərinə məhz bunu təklif edir. Könüllü vergi ödənilməsinə keçid vergi orqanı ilə vergi ödəyicisi arasında sağlam münasibətlərin olduğunu əks etdirməklə, bir sıra istiqamətlərdə də öz pozitiv effektini verəcək və cəmiyyətdə sahibkarın rolunun və nüfuzunun artırılmasına xidmət edəcək. Vergilər barədə məlumat bazasının yaradılması, vergi orqanları və vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqələrin intensivləşdirilməsi və genişləndirilməsi bu məqsədlərə xidmət edir. Vergi ödəyiciləri nazirliyin www.taxes.gov.az rəsmi internet saytı vasitəsilə vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı və onların fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə Vergilər Nazirliyinin Apelyasiya Şurasına müraciət etmək, öz şikayət və təkliflərini nazirliyin rəhbərliyinə çatdırmaq imkanına malikdirlər. Apelyasiya Şurasının fəaliyyətini daha da fəallaşdırmağın və hər bir vergi ödəyicisinin şikayətinə yalnız onun iştirakı ilə baxılmasının vacibliyi önə çəkilir. Bu isə şəffaflığın təmin olunması üçün əhəmiyyətli amillərdən hesab olunur.

> **İntizamlı vergi ödəyicisi ilə qanunu pozmağa çalışan, vergidən yayınmağa cəhd edən vergi ödəyicisi arasında həm qanunvericilikdə, həm də inzibatçılıqda fərq getdikcə artacaq, öz işini qanuna uyğun quran bütün sahibkarların fəaliyyətinin daha rahat və şəffaf şəkildə həyata keçirilməsi üçün münbit zəmin yaradılacaqdır**

Şəffaf münasibətlərin qurulması yalnız vergi inzibatçılığının təkmilləşdirilməsini deyil, həm də vergi ödəyicilərinin öz öhdəliklərinə düzgün yanaşmasını tələb edir. Vergiləri tam həcmdə, vaxtında ödəyən hər bir vicdanlı vergi ödəyicisi vergi orqanlarının etibarlı tərəfdaşı olmaqla, vergi orqanları tərəfindən daim dəstəklənməklə və fərqləndirilməklə yanaşı, həm də ölkəmizin iqtisadi inkişafına mühüm töhfə verirlər.

**Rəşad SADIQOV**

# Vergi əməkdaşları arasında ənənəvi şahmat turniri

**Aprelin 21-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş 13-cü şahmat turnirinə start verilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Vergilər Nazirliyi tərəfindən təşkil olunub.**

Açılış mərasimində çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov iştirakçıları salamlayaraq bildirib ki, turnirin ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunması təsadüfi deyildir. Azərbaycanda şahmatın indiki səviyyəyə çatmasında müstəsna xidmətləri olmuş Heydər Əliyev respublikaya rəhbərlik etdiyi uzun illər ərzində idmanın inkişafına daim böyük qayğı göstərib. Məhz onun təşəbbüsü ilə ölkəmizin şəhər və rayonlarında çoxsaylı uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilib, Azərbaycanda güclü şahmat bazası yaradılıb. Bunun sayəsində hələ sovet dövründə şahmatçılarımız ən mötəbər beynəlxalq turnirlərdə uğurlu çıxışları ilə şahmat həvəskarlarını sevindiriblər.

Qeyd olunub ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra da şahmatçılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələrə nail olublar. Həmin ənənə bu gün də uğurla davam etdirilir və şahmatın inkişafı dövlət başçısı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir.

Bildirilib ki, Azərbaycan şahmatın inkişafı üçün Dövlət Proqramı qəbul etmiş yeganə ölkədir. Respublikamızda beynəlxalq şahmat festivalları, nüfuzlu yarışlar keçirilir. Azərbaycan 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadasını yüksək səviyyədə təşkil edib, həmin tədbir FİDE-nin yekdil qərarı ilə ən yüksək səviyyəli şahmat üzrə Olimpiya yarışı kimi qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş bu turnir vergi xidməti əməkdaşlarının asudə vaxtının səmərəli təşkili və onların intellektual potensialının nümayiş etdirilməsi baxımından böyük əhəmiyyət daşıyır.



Qeyd edək ki, Olimpiya sistemi üzrə keçirilən yarışda nazirliyin müxtəlif struktur bölmələrindən 48 əməkdaş iştirak edir, turnir may ayının 5-də başa çatacaqdır.

# Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı artır

Bu il aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 804 minə yaxınlaşıb. Dövlət Statistika Komitəsindən bildiriblər ki, hesabat dövründə hər altı fərdi sahibkardan beşi «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq», «Ticarət; nəqliyyat vasitələrinin təmiri», «Digər sahələrdə xidmətlərin göstərilməsi» və «Nəqliyyat və anbar təsərrüfatı» sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (29,8 faiz), Aran (20,7 faiz), Gəncə-Qazax (14,0 faiz) və Lənkəran (10,1 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Fərdi sahibkarların 78,5 faizi kişilər, 21,5 faizi isə qadınlardır. Qadınlar «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq» fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 27,0 faizini, «Digər sahələrdə xidmətlərin göstərilməsi» fəaliyyət sahəsində 25,6 faizini, «Ticarət; nəqliyyat vasitələrinin təmiri» fəaliyyət sahəsində isə 20,7 faizini təşkil edir. Sahibkar qadınların 31,7 faizi Bakıda, 17,6 faizi Aran, 17,0 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (22,8 faiz), Gəncə-Qazax (26,0 faiz) və Lənkəran (22,5 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# II Milli Mühasiblər Forumu keçiriləcək

**Aprelin 28-29-da Vergilər Nazirliyinin Şamaxıda yerləşən Tədris Mərkəzində mühasibat uçotu sahəsində müasir çağırışlar çərçivəsində Azərbaycan Respublikası Vergilər Nazirliyi, Azərbaycan Respublikası Auditorlar Palatası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi, İqtisadi Araşdırmalar və Tədris Mərkəzi Gənc Mühasiblər Birliyinin iştirakı ilə II Milli Mühasiblər Forumu keçiriləcək.**

Dövlət və özəl sektorda şəffaflığın, uçot və hesabatlılığın müasir tələblərə uyğun təşkil olunması məqsədilə keçiriləcək forumda mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi, vergi qanunvericiliyi və mühasibat uçotu, büdcə və QHT sektorunda uçot və hesabatın təşkili problemləri, kommersiya qurumlarında uçot və hesabatın problemləri, mühasibat proqramları təminatında müasir çağırışlar, təhsil və sertifikasiya, mühasibat uçotu üzrə karyera və şəxsi inkişaf imkanları mövzuları müzakirə ediləcək. Tədbir çərçivəsində, həmçinin, mühasibat uçotu sahəsində 2018-ci ilin ən yaxşı mühasibat uçotu kitabı, məqaləsi, jurnalı, təlimçisi və proqramı nominasiyaları üzrə müsabiqələr də keçiriləcək. Qalibləri mükafatlar, qiymətli hədiyyələr və sertifakatlar gözləyir.

Artıq Forumda iştirak üçün qeydiyyat prosesinə başlanılıb. Maraqlananlar http://www.mmf.az səhifəsinə daxil olub qeydiyyatdan keçə bilərlər.

Qeyd edək ki, ilk dəfə ötən ilin aprelində təşkil olunmuş Milli Mühasiblər Forumunun ənənəvi olaraq hər il keçirilməsi nəzərdə tutulur. Tədbirin reallaşmasında əsas məqsəd mühasibləri, bu sahədə araşdırma aparan alim və mütəxəssisləri, ictimai xadimləri və digər maraqlı tərəfləri bir araya toplayaraq aktual mövzular ətrafında müzakirələr aparmaq, innovativ fikirləri paylaşmaq, təklif və rəyləri öyrənməyə nail olmaqdır.

**Fəxriyyə İKRAMQIZI**

## 2018-ci İLİN I RÜBÜ ƏRZİNDƏ

**Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 76.741 zəng cavablandırılmışdır**

Verilmiş «ASAN imza» sertifikatlarının sayı: 67.908

Fəaliyyəti bərpa edilmiş vergi ödəyicilərinin sayı: 24.417

QEYDİYYATA ALINMIŞDIR

hüquqi şəxslər: 3.024

cami 20.343

fiziki şəxslər: 17.319

Təsərrüfat subyekti (obyekti): 6.484

Nəzarət-kassa aparatı: 3.784

POS-terminal: 2.318

VERGİ ÖDƏYİCİLƏRİNƏ XİDMƏT STRUKTURLARINDA

qəbul edilmişdir: 37.599

onlara göstərilmiş xidmətlərin sayı: 142.068

VERGİLƏR NAZİRLİYİNİN RƏSMİ İNTERNET SƏHİFƏSİNƏ DAXİLOLMALARIN SAYI: 1.319.325

# Yeni qanun layihəsinin təqdimatı keçirilib

**Azərbaycan Banklar Assosiasiyasında Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən hazırlanmış «Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında» qanun layihəsinin təqdimatı keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Bankının, bankların, habelə xidmət mərkəzlərinin nümayəndələri iştirak ediblər.**

«Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi»nin maliyyə inklüzivliyinin gücləndirilməsi və bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi prioritet hədəflərinin icrası çərçivəsində mühüm nailiyyətlərin əldə olunmasını təmin edəcək bu qanun layihəsi ölkədə ödəniş xidmətlərinə çıxış imkanlarının genişləndirilməsini, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində effektiv tənzimləmə və nəzarət çərçivəsinin formalaşmasını, rəqabət mühitinin daha da güclənməsini təmin edəcək.

Qabaqcıl beynəlxalq təcrübə əsasında hazırlanmış bu qanun layihəsi, eyni zamanda, innovativ ödəniş həllərinin tətbiqinin genişlənməsinə, istehlakçıların elektron ödənişlər sahəsində hüquqlarının müdafiə mexanizmlərinin möhkəmlənməsinə şərait yaradacaq.

# Məlumatlandırma və maarifləndirmə tədbirləri

2018-ci ilin birinci rübü ərzində vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyiciləri ilə 141, bələdiyyələrlə 38, «vergi dostları», şagird və tələbələrlə 75 (ümumilikdə 254) görüş keçirilmiş, 10.173 ünvanlı xidmət göstərilmişdir. Nazirliyin rəsmi internet saytının «Sual-cavab» bölməsi vasitəsilə daxil olan 725 sual cavablandırılmışdır. Suallar, əsasən, bu istiqamətlərdə olmuşdur:

- Vergi növləri barədə - 24,1 %, o cümlədən ƏDV barədə 7,2%;
- Vergi qanunvericiliyinin digər müddəaları ilə bağlı - 18,8%;
- E-qaimə-faktura və ciddi hesabat blanklarının tətbiqi barədə - 11,3%;
- Vergi öhdəlikləri barədə - 11,0%;
- Hesabatlar və onların doldurulma qaydaları barədə - 7,4%;
- Qeydiyyatla bağlı müraciətlər - 5,1%;
- Maliyyə sanksiyaları barədə - 4,3%;
- Vegi güzəştləri barədə - 3,3%;
- E-xidmətlərlə bağlı müraciətlər - 3,2%;
- Nağdsız hesablaşmalar barədə - 3,%;
- Digər - 8,5%.

Vergilər Nazirliyinə daxil olmuş müraciətlər, o cümlədən qanunvericiliyin tətbiqi zamanı yaranan problemlər nəzərə alınmaqla Vergi Məcəlləsində dəyişikliklərin edilməsi və dəyişikliklərə uyğun olaraq bəyannamə formalarına edilməli olan əlavə və düzəlişlərlə bağlı təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

2018-ci il ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə «2018-ci ilin vergi təqvimi» hazırlanaraq nazirliyin rəsmi internet saytında yerləşdirilmiş, həmçinin digər kütləvi informasiya vasitələrində yayımlanmışdır. Elektron qaimə-fakturanın tətbiqi barədə hər bir vergi ödəyicisinə fərdi yanaşmaqla daha səmərəli məlumatlandırma işlərinin aparılması barədə vergi orqanlarına müvafiq göstərişlər verilmişdir.

2017-ci ilin yekunlarına görə hüquqi şəxslərin mənfəət və əmlak vergisi, o cümlədən sadələşdirilmiş verginin ödəyicisi olan hüquqi şəxslərin əmlak vergisi, fiziki şəxslərin gəlir vergisi üzrə bəyannamənin təqdim edilməsi müddəti barədə müvafiq elanlar hazırlanaraq nazirliyin rəsmi internet saytında və sosial şəbəkələrdə yerləşdirilmiş, ATV kanalının «İqtisadi zona» verilişində, digər KİV-lərdə yayımlanmışdır.

Vergi qanunvericiliyinə və digər normativ hüquqi aktlara edilmiş dəyişikliklər nəzərə alınmaqla yeni redaksiyada hazırlanmış 19 adda buklet, kitabça və jurnalların yeni layihəsi nazirliyin rəsmi internet saytında yerləşdirilmişdir.

Elektron xidmətlərin tətbiqi ilə bağlı bələdçi buklet hazırlanmış və burada nazirlik tərəfindın göstərilən elektron xidmətlərin siyahısı, onların reqlamentləri, zəruri məlumatların əldə edilməsi, İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və E-VHF», «E-bəyannamə, ƏDV_DH və ŞHV» və «E-qaimə» bölmələrindən istifadə qaydaları sadə və əyani formada göstərilmişdir. «Fiziki şəxsin onlayn qaydada vergi uçotuna alınması» adlı videotəlimat hazırlanaraq nazirliyin rəsmi internet saytında və sosial şəbəkələrdə yerləşdirilmişdir.

*Hazırladı:*
**RƏŞAD**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əməkhaqqından gəlir vergisi

***Birinci qrup əlil olan fiziki şəxsin oğlunun muzdlu işlə əlaqədar əməkhaqqı gəlir vergisindən azaddırmı?***

Fiziki şəxslərə münasibətdə gəlir vergisindən azadolmalar və güzəştlər Vergi Məcəlləsinin (VM) 102-ci maddəsi ilə müəyyən edilmişdir.

Birinci və ikinci qrup əlillərin (müharibə əlillərindən başqa) əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirləri 200 manat məbləğində azaldılır (VM, maddə 102.3).

Qüvvədə olan qanunvericiliyə əsasən fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli (2018-ci il üçün 173 manat), illik gəliri 30000 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır (VM, maddə 102.1.6).

**Qeyd olunanlara əsasən:**

Birinci qrup əlil olan fiziki şəxsin oğlunun muzdlu işlə əlaqədar əldə etdiyi aylıq gəlirinə vergi güzəştinin verilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Aprelin 16-da 10 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Oğuz rayonundan olan vergi ödəyiciləri ilə görüş keçirmişdir. Görüş iştirakçılarına vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması, «Nağdsız hesablaşmalar haqqında» Qanunun, eləcə də «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» və «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» qaydalarının tətbiqi, «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» və digər aktual məsələlər barədə geniş məlumat verilmişdir. Səmimi söhbət şəraitində keçirilmiş görüşdə vergi ödəyicilərinin sualları cavablandırılmışdır.

- Aprelin 17-də 3 saylı ƏVİ tərəfindən Qusar rayonunda fəaliyyət göstərən bələdiyyələrin nümayəndələri ilə görüş keçirilmişdir. Görüş zamanı vergilərin və ödənişlərin düzgün hesablanması, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, o cümlədən «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi barədə, «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi barədə məlumat verilmişdir. Bələdiyyə nümayəndələrinin yerli vergilərin yığılması ilə bağlı rast gəldikləri çətinliklərin həlli yolları barədə sualları ətraflı cavablandırılmışdır.

- Aprelin 19-da 3 saylı ƏVİ əməkdaşları ilə Quba şəhərindəki 2 saylı tam orta məktəbin Metodiki kabinetində «Vergi dostları» şəbəkəsinin təmsilçilərinin görüşü olmuşdur. Qeyd edək ki, Vergi dostları» şəbəkəsi vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, «vergi» məfhumunu ölkəmizin bütün ərazisinə, xüsusilə şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrə, hər bir ailəyə çatdırmaq, bununla da vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq, o cümlədən bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə yaradılmışdır.
  Görüşdə Vergi Məcəlləsinə edilən son əlavə və dəyişikliklər, e-qaimənin tətbiqi və yeni uçota alınmış vergi ödəyicilərininin qanunvericiliyin tələblərinə əməletmə vəziyyəti, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsinin keçirilməsi qaydaları geniş müzakirə olunmuş, vergi dostlarının fəaliyyəti zamanı rastlaşdıqları praktiki məsələlər ətrafında söhbət aparılmışdır.

- Aprelin 23-də 12 saylı ƏVİ-nin əməkdaşları «Vergi dostları» şəbəkəsinin nümayəndələri və Gəncə şəhəri 14 saylı orta məktəbin yuxarı sinif şagirdləri ilə görüş keçirmişdir. Görüş iştirakçılarına 2018-ci ilin dövlət büdcəsi, ölkəmizdə keçiriləcək növbəti ticarət festivalı barədə məlumat verilmiş, eləcə də vergi mədəniyyətinin artırılması istiqamətində vergi dostları ilə birgə görüləcək işlər müzakirə edilmişdir.
  Görüş zamanı xarici ölkələrin vergi sistemi, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri, vergi güzəştləri və azadolmalar kimi məsələlər barədə söhbət aparılmışdır.

**Azərbaycan Xalq Cümhuriyyəti-100**

# 1918-20-ci illərdə Azərbaycanın vergi siyasəti

1918-ci ilin may ayında Şərqin ilk demokratik respublikasının - Azərbaycan Cümhuriyyətinin qarşıya qoyduğu əsas vəzifələrdən biri də iqtisadi müstəqilliyin təmin olunması və müstəqil maliyyə-fiskal-vergi sisteminin qurulması idi. Mövcud olduğu 23 ay müddətində dövlətin iqtisadi siyasətini həyata keçirəcək nazirlik və müvafiq qurumlar təsis edildi, dövlətin iqtisadi tənzimləmə fəaliyyətini təmin etmək və gücləndirmək üçün büdcə-fiskal siyasətinin istiqamətləri müəyyənləşdirildi.

Mütəxəssislər Azərbaycan Cümhuriyyətinin fəaliyyət göstərdiyi 23 ay ərzində həyata keçirmək istədiyi maliyyə-vergi siyasətini şərti olaraq 2 hissəyə bölürlər:

1. Cari dövr üçün maliyyə-fiskal siyasət. Bu dövrdə Azərbaycan Cümhuriyyəti özünün mövcud maliyyə resurslarından tam və düzgün istifadə etmək siyasəti yürüdüb.

2.Cümhuriyyət özünün imkanlarını müəyyən etdikdən sonra həyata keçirdiyi maliyyə-vergi siyasəti. Bu siyasətin əsas prioritetləri isə vergilərin artırılması deyil, tədiyyə qabiliyyətinin yüksəldilməsi yolu ilə vergilərin tədricən azaldılmasına üstünlük verilməsi idi.

Nazirlər Kabineti müstəqil büdcə quruculuğuna və vergi işinin təşkilinə mühüm yer verirdi. 1918-ci ilin sonlarında Azərbaycanda müstəqil dövlətin büdcə quruculuğu təcrübəsinin əsası qoyuldu. Vergi siyasətini həyata keçirmək məqsədilə parlamentin 1919-cu il iyunun 17-də qəbul etdiyi qərarla Maliyyə Nazirliyinin nəzdində Vergi Müfəttişliyi təsis olundu. Yeni quruma vergi müvəkkillərinin və vergi məntəqələrinin fəaliyyətini nəzarətdə saxlamaq və təftiş etmək səlahiyyətləri verildi. Həmin dövrdə Vergi polisinin təsis edilməsi nəzərdə tutulsa da, hökumət bu qurumun fəaliyyətini məqsədəuyğun hesab etməmişdi.

Vergi Müfəttişliyinin yaradılması və fəaliyyətə başlaması ilə vergi orqanlarının mərkəzi və yerli şəbəkəsi formalaşdırıldı. Cümhuriyyətin vergi siyasəti ilə bağlı mühüm addımlarından biri həmin dövr üçün xüsusi aktuallıq kəsb edən aksiz vergilərinin toplanmasını təmin etmək idi. Bu məqsədlə aksiz idarələri yaradılmışdı. İdarələr Bakı, Gəncə, Zaqatala quberniyaları daxil olmaqla mərkəzləşdirildi, qəza rəislərinin vergi yığmaq funksiyası ləğv olundu. Vergi Müfəttişliyi ilə bərabər, şəhər özünüidarəetmə orqanları da bəzi vergilərin toplanmasına kömək edirdi. Hökumətin vergi növləri aşağıdakı tədiyyələr üzrə müəyyənləşdirilmişdi:



- Müstəqim (birbaşa vergilər) - torpaq, daşınmaz əmlak, sənaye, kapital qoyuluşu, hərbi mükəlləfiyyət, notarial və dövlət gəlir vergiləri;
- Qeyri-müstəqim (dolayı vergilər) - tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri;
- Möhür haqqı - məhkəmə, kargüzarlıq, sənəd yazışmalarından gəlirlər;
- Hökumət inhisarlarına aid vergilər - mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gəlirlər;
- Dövlət dəmir yolundan gəlirlər - yük daşınmasından gələn gəlirlər.

Azərbaycan Cümhuriyyətinin hakimiyyətinin ilk illərində ölkənin maliyyə vəziyyəti qənaətbəxş deyildi. Xəzinənin əsas gəlir mənbəyi olan neft sənayesində durğunluq yaranmış, Batumi limanı ilə xaricə ixracın həcmi xeyli azalmışdı, əsas alıcı ölkə olan Rusiya ilə münasibətlərin gərginləşməsi neft sənayesini ağır vəziyyətə salmışdı. Xəzinənin əsas mənbəyi olan neftdənkənar sahələrin inkişafı da zəif idi. Ölkənin ixracının əsasını təşkil edən neft sənayesi dağılmış, ağırlıq ərzaq - əmtəə məhsullarının üzərinə keçmişdi. Parlamentdə və hökumət strukturlarında neft sənayesinin aksiz vergisinə cəlb edilməsi, yaxud dövlət inhisarına verilməsi məsələsi ətrafında geniş müzakirələr başlandı. Məqsəd Bakı neftindən xəzinəyə daha çox gəlir daxil olmasını təmin etmək idi. Geniş müzakirə və diskussiyalardan sonra liberal iqtisadiyyata üstünlük verilməsi, neft məhsullarının sərbəst satışı yolu ilə (neft məhsullarının aksizlərə cəlb edilməsi) büdcəyə müəyyən məbləğin köçürülməsi məqsədəuyğun hesab olundu. Bununla əlaqədar aksiz rüsumları haqqında nizamnamə qəbul edildi. Neft məhsulları aksizlərinin, gömrük rüsumlarının və dəmir yolu üzrə vergi dərəcələrinin artırılması məqsədəuyğun hesab olundu. Nazirlər Kabineti tərəfindən 1918-ci il oktyabrın 1-də neft sənayesinin özəlləşdirilməsi barədə dekret imzalandı və bu qərar həmin sahədə vergi tənzimlənməsində müsbət rol oynadı.

1919-cu ilin ortalarında dövlət vergi siyasətinin formalaşmasında əsas rol oynayan ən mühüm qanun («Kapital vergisinin ödəniş möhləti və tarif dərəcələrinin dəyişdirilməsi haqqında») qəbul olundu ki, bu da ölkənin maliyyə-iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Qanun birbaşa vergilərin təyin olunmuş vaxt və tarif dərəcələrini müəyyən edirdi. Həmin növ vergilər hər 100 manatdan 30 manat olmaqla ilin başlanğıcında, fevralın 1-dən gec olmayaraq ödənilirdi. Digər vergilər müxtəlif rüblər üzrə, gəlir vergisi isə ilin sonunda, gəlirin həcmi bəlli olandan sonra ödənilirdi.

Vergi Müfəttişliyi 1919-cu ilin büdcə zərfinin müzakirələri zamanı dövlət büdcəsinə daxil olan gəlir mənbələrini genişləndirmək məqsədilə əmtəə və xammalın istehsalını artırmaq, digər iqtisadi sahələri canlandırmaq təklifləri ilə hökumətə müraciət etdi. Hökumət gəlir mənbələrinin artırılması təşəbbüsünü yüksək dəyərləndirərək bank fəaliyyətini canlandırmaq və banklara etibarı artırmaq üçün fəaliyyət planı hazırladı. Məqsəd imkanlı şəxslərin əlində cəmləşmiş 100 milyonlarla rubl pulun (həmin dövr əməliyyatlar Çar Rusiyasının ödəniş vasitəsi ilə tənzimlənirdi) milli iqtisadiyyata və ticarətə cəlb edilməsi idi.

Hökumətin həyata keçirdiyi siyasət nəticəsində 1919-cu ildə dövlət büdcəsinə ödənilən vergilərin həcmində əvvəlki illə müqayisədə artım qeydə alındı. Büdcədə dolayı və neft mədənlərindən alınan vergilər gəlirlərin 52,3 %-ni təşkil edirdi. Balıqçılıq təsərrüfatından daxil olan vergilər isə ümumi vergi gəlirlərinin təxminən 30%-nə bərabər idi. Gömrük daxilolmalarının payı vergilərdə 15 % idi. Digər vergilərin ümumi payı isə 4-5% təşkil edirdi.

Vergi siyasətində ən mühüm məqamlardan biri parlamentin 1919-cu il oktyabrın 2-də qəbul etdiyi qanuna əsasən, hərbi verginin ləğv edilməsidir. 1915-ci il aprelin 19-dan hərbi mükəlləfiyyətdən azad olunanlara tətbiq olunan verginin ləğvi hərbçilərdə yaranmış sosial narahatlığı da aradan qaldırdı.

*(Davamı növbəti sayımızda)*

***Hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Ticarət Festivalının imkanlarından hər kəs yararlana biləcək

İlk dəfə ötən ilin aprel ayında paytaxtımızda təşkil olunmuş «Baku Shopping Festival» – Bakı Ticarət Festivalı ticarət dövriyyəsini genişləndirmək, daxili və xarici turizmə əlavə stimul yaratmaq, yerli istehsalı və sahibkarlığı hərəkətə gətirmək, qeyri-neft sektorunun canlanmasına nail olmaq məqsədi daşıyır. Şəhərimizi dünyanın qabaqcıl alış-veriş mərkəzlərindən birinə çevirmək məqsədilə təşkil olunmuş ikinci festival ötən il oktyabrın 15-dən noyabrın 15-dək keçirilmişdi. Bir neçə gün sonra - may ayının 1-dən isə paytaxtımızda üçüncü Ticarət Festivalına start verilir.

Qafqazda və Orta Asiyada ilk belə təcrübə hesab olunan festivala qonşu dövlətlərdən, eyni zamanda son illər Azərbaycana böyük turist axınının müşahidə olunduğu xarici ölkələrdən də böyük maraq göstərilir. Tədbir bir ay ərzində həm xarici turistlərə, həm də yerli istehlakçılara əlverişli alış-veriş imkanı yaradır, müxtəlif əyləncələr təqdim edir. Dünya Turizm Təşkilatının hesabatında ticarət festivalları nəticəsində dünyada turist axınının 30 faizədək artdığı qeyd olunur.

### «Tax free» sistemindən həm əcnəbilər, həm də Azərbaycan vətəndaşları istifadə edə biləcəklər

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması sahəsində operator tərəfdaş kimi Vergilər Nazirliyi məşğul olur. Nazirlik ƏDV-nin qaytarılması işlərini təşkil edir, müvafiq proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir. Birinci festival dövründə 31 vergi ödəyicisinin 172 təsərrüfat subyekti vergi orqanlarında satıcı kimi qeydiyyatdan keçmişdir. İkinci festival dövründə isə 77 vergi ödəyicisinin 493 təsərrüfat subyekti vergi orqanlarında satıcı kimi qeydiyyata alınmışdır. Festival dövründə hər bir alıcı ƏDV-nin qaytarılması ilə bağlı satıcılardan ətraflı məlumat almaq imkanına malik olacaqlar. Festival çərçivəsində əcnəbilərlə yanaşı, Azərbaycan vətəndaşları da «Tax free» sistemindən istifadə edə biləcəklər. Alınan mala görə ödənilmiş məbləğin ƏDV hissəsini şəxsiyyət vəsiqəsini təqdim etməklə geri almaq mümkün olacaq. Malların dəyəri bir hesab-faktura üzrə 100 manatdan çox olarsa, həmin sənədi satıcıdan almaq və bu məqsədlə yaradılan ƏDV köşkündə təsdiqlətmək lazımdır. Ödənilən məbləğin vergisini müvafiq müvəkkil bank vasitəsilə nağd və ya köçürmə yolu ilə geri almaq mümkündür.

Qeyd edək ki, birinci festival dövründə 1 mln. 537 min manatdan artıq vəsait müştərilərə geri qaytarılmışdı. İkinci festival dövründə isə bu rəqəm 3 mln. 388 mindən çox olmuşdur.

### ƏDV-nin qaytarılması mexanizmi sadələşdirilib

Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə satıcı Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-fakturası (e-VHF) tərtib edir və bu barədə məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür. Alıcı ticarət festivalı dövründə aldığı mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə müəyyən olunmuş yerlərdə yaradılan xüsusi köşkə yaxınlaşaraq aldığı malların elektron vergi hesab-fakturasını vergi orqanının köşkdə çalışan əməkdaşına təqdim edir. Məlumatlar vahid məlumat bazasında yoxlanıldıqdan sonra avtomatik olaraq risk qiymətləndirməsi aparılır və onun nəticələri əsasında vergi orqanının əməkdaşı tərəfindən mallara baxılmalı olub-olmadığı müəyyən edilir. Yoxlamanın nəticələrinə uyğun olaraq qaytarılacaq ƏDV məbləği barədə təsdiq qeydi aparılır, sənəd möhürlənib alıcıya təqdim olunur və bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür. Müvəkkil bank isə vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq, elə həmin gün nağd qaydada və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə isə milli və ya xarici valyutada) alıcının bank kartına (və ya hesabına) köçürmə qaydasında həyata keçirir. «Tax free» sistemində olduğu kimi, burada da bir sıra mallar var ki, onlara görə tutulmuş ƏDV qaytarılmır. Buraya aksizli mallar, ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallar, nəqliyyat vasitələri və onların ehtiyat hissələri aiddir.

Onu da qeyd edək ki, «Tax free» sistemində 300 manatdan artıq alınmış mallar üzrə ƏDV-nin qaytarılması nəzərdə tutulurdusa, ticarət festivalları zamanı bu hədd daha aşağıdır - bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə 100 manatdan çox olmalıdır. «Tax free» sistemində alıcı malı ölkə ərazisindən çıxardıqdan sonra ən geci 90 gün ərzində ƏDV geri qaytarılır, ticarət festivallarında isə belə məhdudiyyət yoxdur - mal alındığı gün ərzində ƏDV nağd qaydada və ya sonrakı 10 gün ərzində nağdsız qaydada geri qaytarılır. «Tax free» sistemində malların yoxlanılması və ƏDV-nin qaytarılması gömrük sərhəd-buraxılış məntəqələrində, ticarət festivallarında isə bilavasitə ticarət məkanlarında yaradılan xüsusi köşklərdə həyata keçirilir. Əvvəlki ticarət festivallarında 7 bank müştərilərə öz xidmətlərini göstərmişdir. Əgər tələbat yaranarsa, növbəti festivalda bankların sayının 10-a çatdırılması, köşklərin sayının isə artırılması nəzərdə tutulur.

**Rəşad SADIQOV**

# «Nağdsız Azərbaycan»

**Prezident İlham Əliyev 2018-ci ilin yanvar ayında Davosda keçirilmiş Dünya İqtisadi Forumu çərçivəsində «MasterCard» şirkətinin baş hüquq məsləhətçisi Timoti Mörfi ilə görüşdə bildirmişdi ki, Azərbaycanda iqtisadi inkişafın əsas elementlərindən biri nağdsız cəmiyyətin formalaşdırılmasıdır. Hökumət bu istiqamətdə «MasterCard»la əməkdaşlığa üstünlük verir və birgə icra olunan «Nağdsız Azərbaycan» layihəsi ölkədə nağdsız transformasiya strategiyasının yaradılmasına yönəldilib. Layihənin əsas məqsədi nağdsız ödənişlərin və iqtisadiyyatın səmərəliliyini artırmaq, Azərbaycan iqtisadiyyatının inkişafına dəstək olmaqdır.**

2017-ci ilin iyul ayından həyata keçirilən «Nağdsız Azərbaycan» layihəsi üç mərhələdən ibarətdir. Ötən ilin sonunda yekunlaşan birinci və ikinci mərhələ üzrə mövcud vəziyyət araşdırılıb, nağd iqtisadiyyatın həcmi müəyyənləşdirilib, nağd pul vəsaitindən istifadənin əsas səbəbləri qiymətləndirilib. «MasterCard»ın Azərbaycan üzrə meneceri Alper Meriç bildirib ki, qiymətləndirmənin nəticələrinə görə, Azərbaycanda nağd ödənişlərin payı 90%-dən çoxdur. Buna baxmayaraq, ölkədə nağdsız ödəmələrin inkişafı üçün böyük potensial var və bu istiqamətdə yeni prioritetlər müəyyənləşdirilir. Şirkət ölkəmizdə «Apple Pay» və «Samsung Pay» kimi ödəniş platformalarının yaradılması üzrə işlər aparır. Layihənin nağdsız ödənişlər sektorunun inkişafına dair strategiyanın müəyyənləşdirilməsini nəzərdə tutan sonuncu mərhələsi üzrə işlər 2018-ci ilin mart ayında yekunlaşıb və həmin plan əsasında geniş fəaliyyət proqramının layihəsi hazırlanıb.

### Vergilər Nazirliyi ilə birgə hədəfə doğru...

Mərkəzi Bankın (MB) İdarə Heyətinin sədrinin birinci müavini Alim Quliyev bildirib ki, «Nağdsız Azərbaycan» ümumi platformadır, dövlətin nağdsız iqtisadiyyatın inkişafına dair strateji baxışlarıdır, həmin layihə əsasında hazırlanan «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı»nı əsas hədəfi isə ölkənin rəqəmsal transformasiyasını və nağdsız ödənişlərə keçidi təmin edən sistemli və kompleks tədbirləri nəzərdə tutur. Qeyd olunub ki, nağdsız cəmiyyətə keçid üçün yaxşı infrastruktur mövcuddur, 2013-2017-ci illər ərzində ödəniş kartları ilə aparılan nağdsız əməliyyatların həcmi 4,8 dəfə, POS-terminal vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 4,6 dəfə, elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi isə təxminən 4 dəfə artıb. Amma mövcud vəziyyət hökuməti qane edə bilməz və nağdsız iqtisadiyyatın qurulması üçün xeyli çalışmağa ehtiyac var.

Mərkəzi Bankın İdarə heyətinin sədri Elman Rüstəmov qeyd edib ki, 2018-ci ildə «Nağdsız Azərbaycan»la yanaş, «Ani ödənişlər», «3D bank sektorunda blokçeyn texnologiyalarına keçid» proqramları da həyata keçiriləcək. Nağdsız ödəmələrin genişləndirilməsini hədəfləyən hər üç layihənin icrasında bir sıra qurumlarla, xüsusilə də Vergilər Nazirliyi ilə fəal əməkdaşlıq davam etdirilir, birgə yaradılmış işçi qrup nəzərdə tutulan tədbirlər planını həyata keçirəcək.

> Nağdsız ödəmələrin genişləndirilməsini hədəfləyən hər üç layihənin icrasında bir sıra qurumlarla, xüsusilə də Vergilər Nazirliyi ilə fəal əməkdaşlıq davam etdirilir, birgə yaradılmış işçi qrup nəzərdə tutulan tədbirlər planını həyata keçirəcək

### Təşviqat və maarifləndirmə

Azərbaycan Banklar Assosiasiyasının icraçı direktoru Yunus Abdulov qeyd edib ki, nağdsız dövriyyənin artırılmasının əsas şərtlərindən biri nağdsız ödəmə avadanlıqlarının tətbiqinin genişləndirilməsidir. Son illərdə ölkəmizdə bank sisteminin geniş inkişafı və onlayn ödəmə texnologiyalarının tətbiqi müşahidə olunur. Buna baxmayaraq, nağdsız dövriyyənin həcmi aşağıdır, bunun üçün maarifləndirmə siyasəti mühüm yer tutmalıdır. Rəqəmsal ödənişlərin istifadəsinin artırılması məqsədilə cari ildə ölkə üzrə kütləvi təbliğat və təşviqat kampaniyasının təşkil edilməsi planlaşdırılır. Bu istiqamətdə kommunikasiya planı hazırlanıb. «MasterCard»şirkətinin Azərbaycan üzrə meneceri Alper Meric hesab edir ki, nağdsız cəmiyyətin təşviqi üçün müxtəlif təşəbbüslərin həyata keçirilməsi öz müsbət təsirini göstərir. Həmin təşəbbüslərdən biri kimi ötən ilin ikinci yarısından «ASAN xidmət»in İnnovasiyalar Mərkəzi ilə birgə maliyyə savadlılığı layihəsinin icrasına başlanılıb. «Nağdsız Azərbaycan» naminə artırılan səylər rəqəmsal ödəniş texnologiyalarının tətbiqində maliyyə savadlılığının yüksəldilməsinə hesablanıb.

### «Nağdsız Azərbaycan» şəffaflığı təmin edəcək

İqtisadçı Zaur Əliyevin sözlərinə görə, «Nağdsız Azərbaycan» platforması əsasında nağd ödəmələrin tədricən məhdudlaşdırılmasını və yeni ödəniş texnologiyalarının tətbiqini nəzərdə tutan davamlı tədbirlər planı icra ediləcək. Bu konsepsiyanın reallaşdırılması bütövlükdə ölkədə monetar sferanın idarə olunması, pul kütləsinə monetar nəzarətin təşkili, ödənişlərə dövlət nəzarətinin həyata keçirilməsi, vergidən yayınma hallarının qarşısının alınması və dövlət büdcəsinə ödənilən vəsaitlərin həcminin artırılmasında mühüm rol oynayacaq. Nəticədə ölkə iqtisadiyyatının inkişafında, şəffaflığın güclənməsində güclü təməl olacaq.

### «Rəqəmsal hökumət» və nağdsız iqtisadiyyat

«Nağdsız Azərbaycan» layihəsinin prioritetləri bu günlərdə dövlət başçısı tərəfindən təsdiq edilmiş «Rəqəmsal hökumətə keçid üzrə Fəaliyyət Planı»nda nəzərdə tutulan strategiyada da əksini tapıb. Həmin sənədin əsas hədəflərindən biri rəqəmsal xidmətlərin tətbiqinin genişləndirilməsi və rəqəmsal ödənişlər infrastrukturunun gücləndirilməsindən ibarətdir. Vergilər Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Banklar Assosiasiyası və digər qurumların nağdsız ödənişlərin genişləndirilməsinə dair təşviqedici siyasəti «Rəqəmsal hökumət» quruculuğunda irəliyə doğru ümumi konsepsiyadır.

**Elbrus CƏFƏRLİ**

# «Doing Business» üzrə ciddi islahatlar aparılır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi «Azərbaycan İqtisadi İslahatlar icmalı»nın növbəti buraxılışını «Doing Business» hesabatı istiqamətində aparılan islahatlara həsr edib.




Hesabatda «Doing Business» üzrə aparılan islahatlar barədə geniş məlumatlar yer alıb. Bildirilib ki, 2018-ci ildə açıqlanacaq «Doing Business-2019» hesabatında Azərbaycanın mövqeyinin gücləndirilməsini təmin edəcək - biznesə başlama; tikinti üçün icazələrin alınması; elektrik təchizatı şəbəkələrinə qoşulma; əmlakın qeydiyyatı; kreditlərin alınması; kiçik investorların maraqlarının qorunması; vergilərin ödənilməsi; xarici ticarətin aparılması; müqavilələrin icrasının təmin edilməsi və müəssisənin bağlanması - istiqamətləri üzrə ciddi iqtisadi islahatlar aparılıb.

Hesabatın «Tikintilərə icazələrin alınması» indikatoru üzrə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması üçün obyektin tikintisinə və istismarına icazələrin verilməsi prosedurlarının sayı azaldılaraq 10-a endirilib. Tikinti layihəsi ekspertiza tələb olunan və olunmayan obyektlərə ayrılmaqla ekspertizası tələb olunmayan obyektlərin siyahısı genişləndirilib. Həmçinin bu istiqamət üzrə texniki şərtlər «bir pəncərə» prinsipi əsasında, sadəcə, 1 sorğu vasitəsilə «ASAN xidmət» mərkəzlərində əldə olunur.

İcmalda qeyd edilib ki, «Doing Business» hesabatının elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə də islahatlar aparılıb: 150 kilovata qədər sahibkarlıq obyektlərinin mövcud 0,4 kilovoltluq elektrik şəbəkəsinə qoşulması üçün texniki şərtlər, indi yerləşdiyi rayondan asılı olmayaraq, «Azərişıq» ASC tərəfindən «ASAN kommunal» və «ASAN xidmət» mərkəzləri vasitəsilə maksimum 24 gün müddətində verilir. Bu sahədə daha bir yenilik «bir pəncərə» sistemi üzrə prosedurların 7-dən 3-dək azaldılmasıdır. Sahibkarların bu islahat prosesindən əldə etdiyi daha bir üstünlük əməliyyatların elektronlaşdırılması və məmur-vətəndaş təmasının minimuma endirilməsidir.

Hesabatın daha bir indikatoru - «Kreditlərin alınması» üzrə sahibkarlara yeniliklər təqdim olunub. Aidiyyəti dövlət qurumları tərəfindən aparılmış təşviqedici tədbirlər nəticəsində Azərbaycanda ilk Özəl Kredit Bürosu yaradılıb. Bundan əlavə, Maliyyə Bazarlarına Nəzarət Palatası nəzdində Daşınar Əmlakın Yüklülüyü Reyestri xidməti fəaliyyətə başlayıb. Bütün bu islahatlar nəticəsində sahibkarların maliyyə resursları əldə etmək imkanı artırılıb, kredit təşkilatları üçün müştəri dairəsi genişlənib.

Hesabatda yer alan digər 7 indikator üzrə də ciddi islahatlar aparılmaqla ölkədə biznesin fəaliyyətinin asanlaşdırılması istiqamətində tədbirlər paketi təqdim olunub.

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Şahdağ» Turizm Mərkəzi ilə Rusiyanın «Şimali Qafqaz kurortları» ASC arasında əməkdaşlığa və təcrübə mübadiləsinə dair Saziş, həmçinin Rusiyanın «QAZ» ASC və Azərbaycanın «Azərmaş» ASC arasında kiçiktonnajlı avtomobillərin Azərbaycanda yığılmasına dair uzunmüddətli əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Rusiya-Azərbaycan sərhədindəki Samur çayı üzərindən körpünün tikintisi 2019-cu ilin birinci rübündə başa çatacaq.

Avstriyanın ən böyük tirajlı gündəlik «Kronen» qəzetinin «Reisezeit» (Səyahət zamanı) buraxılışında Azərbaycana həsr olunmuş məqalə dərc edilib.

ABŞ-ın Ticarət Departamenti və Dövlət Departamentinin dəstəyi ilə iyunun 20-22-də Vaşinqtonda keçiriləcək sərmayə sammitinə Azərbaycan sahibkarları da dəvət olunublar.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Ani ödənişlər sistemi

**Son dövrlərdə müxtəlif ölkələrdə, xüsusilə də Avropada ani ödənişlər sistemi tətbiq edilir. Mərkəzi Bank tərəfindən ölkəmizdə də belə bir sistemin tətbiqi layihəsinə başlanmışdır. Bəs bu sistemin əsas mahiyyəti nədir, necə işləyir, üstünlükləri nədən ibarətdir? Mövzunu «TuranBank»ın İnformasiya texnologiyaları üzrə baş direktoru Bəxtiyar Məmmədov şərh edir.**

Ani ödənişlər sistemi dünya təcrübəsində «Instant Payment System», yaxud «Fast Payment system» adı ilə tanınır. Əsas məqsədi qısa zaman ərzində pul vəsaitinin nağdsız şəkildə bir şəxsdən digər şəxsə ötürülməsidir. Ötürülməni isə klirinq mərkəzi təmin edir.

Bunu misal üzərində izah etmək üçün «klirinq sistemi» anlayışının nə olduğunu bilməliyik. Bir çox hallarda bank yolu ilə bir şəxsin digər şəxsə pul köçürdüyünü bilirik. Bu köçürmə zamanı bir bankın kassasına vəsait ödəyirik, digər bankın kassasından isə qarşı tərəf vəsaiti götürür. Bunlar ayrı-ayrı banklar olsa da, vəsaiti biri digərinə ötürə bilir. Bəs bu necə baş verir? Bu məqsədlə klirinq mərkəzlərindən istifadə edilir. Azərbaycanda Mərkəzi Bankın hesablaşma klirinq mərkəzi vardır. Bütün Azərbaycan banklarının isə Mərkəzi Bankda hesabı vardır. Şərti olaraq belə qəbul edək ki, banklar öncə müəyyən məbləğdə nağd pulu Mərkəzi Banka təhvil verir, Mərkəzi Bank isə həmin pulun məbləğini hər hansı bankın Mərkəzi Bankdakı hesabına mədaxil edir. Daha sonra bir bank digər banka köçürmə etdikdə Mərkəzi Banka (klirinq mərkəzinə) bu köçürmənin məbləği ilə bağlı elektron şəkildə məlumat ötürür, klirinq mərkəzi isə bu məlumata əsasən vəsaiti köçürən bankın hesabında olan məbləği azaldır, vəsaiti alan bankın isə hesabında olan məbləği artırır. Bu, klirinq sisteminin qısa və ümumi iş prinsipidir. Klirinq mərkəzi sanki arada bir neçə bankın vəsaitini əlində saxlayan, bankdan-banka köçürülən vəsaitlərin hesablaşmasını aparan «inanılmış üçüncü şəxs» funskiyasını yerinə yetirir.

Tutaq ki, Azərbaycanda yaşayan hər hansı şəxs digər şəxsə müəyyən məbləğdə vəsait göndərmək istəyir. İndiki halda şəxslərdən biri öz bankına yaxınlaşmaqla (yaxud da internet bank vasitəsilə) müştərisi olduğu banka ödəniş tapşırığı verməlidir. Bank bu ödəniş tapşırığını qəbul etməli və klirinq mərkəzinə göndərməlidir. Mərkəzi Bank isə klirinq mərkəzində həmin bankın müxbir hesabından müvafiq məbləğ qədər vəsaiti çıxmalı və digər bankın müxbir hesabını həmin məbləğ qədər artırmalıdır. Daha sonra isə vəsaiti alacaq şəxsin müştərisi olan bank klirinq mərkəzindən bu məlumatı əldə etməli və öz müştərisinin hesabını həmin vəsaitin məbləği qədər artırmalıdır. Qeyd etdiyimiz proses elektron şəkildə həyata keçirilir, lakin bütün yoxlamalar tam olaraq ani həyata keçirilmir və bir çox hallarda bu prosesin yerinə yetirilib tamamlanması üçün bir neçə dəqiqədən bir neçə saatadək, bəzən isə bir günədək vaxt sərf edilir. Həmçinin bu prosesin yalnız iş saatlarında həyata keçirilməsi mümkün olur.

Bir variant da budur ki, bir şəxsin digər şəxsə vəsait köçürməsi üçün plastik kartlardan istifadə edilə bilər. Prosessinq mərkəzləri bir sıra hallarda card-to-card xidməti təklif edirlər ki, bu xidmət vasitəsilə də müştərilər bankomatlardan digər bir şəxsin plastik kartına vəsait köçürə bilirlər. Proses daha sürətli baş versə də, burada da kifayət qədər çətinliklər vardır. Göndərən şəxs qarşı tərəfin kart nömrəsini bilməlidir, bundan əlavə, bu hal üçün bankdaxili effektiv nəzarət mexanizmlərinin tətbiq edilməsi kifayət qədər çətindir.

Ani ödənişlər sistemi tətbiq edilərsə, bu halda da təxminən eyni proses həyata keçiriləcəkdir. Bir bank digər banka vəsaiti klirinq mərkəzi üzərindən göndərəcəkdir. Əsas fərq bu olacaq ki, yuxarıda qeyd edilən bütün proses tam avtomatlaşdırılmış rejimdə, istənilən günün istənilən saatında həyata keçirilə və bir neçə saniyə ərzində tamamlana biləcəkdir.

Avropada bu praktika daha irəli getmişdir, ölkələr daxilində tətbiq edilmiş ani ödənişlər sistemindən bir qədər də irəli addım atılmış, Avropa ölkələri arasında ani ödənişlər sistemi tətbiq edilmişdir. Məsələn, Avropa Banklar Assosiasiyasının klirinq mərkəzində 2017-ci ilin noyabr ayında «RT1» adlı ani ödənişlər sistemi fəaliyyətə başlamışdır. Bu sistemə artıq 20-dən çox bank qoşulmuşdur. Postsovet məkanında Latviyadan iki bank da bu sistemə qoşulanlar arasındadır.

Ani ödənişlər sistemində bir tranzaksiya üzrə köçürülməsinə icazə verilən vəsait limiti müxtəlif banklar üzrə müxtəlifdir: 30 avrodan 15.000 avroyadək dəyişir. İndiyədək bu sistem vasitəsilə vəsait köçürülməsinin sayı bir milyonu keçmişdir. Böyük ehtimalla ani ödənişlər sistemi üçün Azərbaycanda da müəyyən məbləğ limiti təyin ediləcək. Limitdən yuxarı həcmdə vəsait köçürmələri isə əvvəlki klirinq sistemi vasitəsilə yerinə yetiriləcəkdir. Limitin tətbiq olunmasına əsas səbəb nəzarət mexanizmlərinin effektiv təşkil edilməsidir. Belə hesab etmək olar ki, ani ödənişlər sisteminin ölkəmizdə tətbiqi nağdsız hesablaşmaların inkişaf etdirilməsi yolunda kifayət qədər üstünlüklər gətirə bilər. Gələcəkdə gündəlik həyata keçirilən ödənişlərin ani ödənişlər sistemi vasitəsilə həyata keçirilə bilməsini təmin edə biləcək bir sistem tətbiq olunacaqdır. Bu isə iqtisadiyyatın qan damarı olan bank sisteminin daha effektiv fəaliyyətini və texnologiyanın ölkə iqtisadiyyatına daha gərəkli bir töhfə verməsini təmin edəcəkdir.

Qeyd edək ki, artıq Azərbaycan Mərkəzi Bankı tərəfindən «Ani ödənişlər sistemi»nin yaradılması üzrə açıq tender elan olunub. Bankdan verilən məlumata görə, tenderin elan edilməsi tətbiqi proqram təminatları, avadanlıqlar, standart proqram təminatları və sistem proqram təminatlarının təchizatı, quraşdırılması və sistemin yaradılması ilə bağlıdır.

*Hazırladı:*
**FƏXRİYYƏ**

# Alternativ enerji ətraf mühitin mühafizəsi və qənaət deməkdir

**2020-ci ildə Azərbaycanda istehsal ediləcək elektrik enerjisinin ən azı 20 faizinin alternativ mənbələr hesabına əldə olunması planlaşdırılır**

Bərpa olunmayan enerji mənbələrindən aktiv surətdə istifadə onların getdikcə daha da azalmasına və qiymətinin bahalaşmasına gətirib çıxarır. Alimlərin bu narahatlıqdan irəli gələn araşdırmalarına görə, bugünkü istismar tempi ilə daş kömür 400-500, neft və qaz isə maksimum 100 ilə çatacaq. Digər tərəfdən, bərpa olunmayan enerji mənbələrindən aktiv istifadə, yer təkinin istismarı və yanacağın yandırılması planeti də eybəcərləşdirir, onun ekologiyasını getdikcə korlayır. Bu səbəblərdən də bəşəriyyət qarşısında ekoloji təmiz, bərpa olunan alternativ enerji mənbələrinin mənimsənilməsi məsələsi əsas vəzifə kimi dayanıb.

### Dünya alternativ enerji axtarışındadır

İnkişaf etmiş bir çox ölkələr alternativ enerji mənbələri əldə etmək üçün çoxsaylı layihələrə, geniş tədqiqatlara start verib. Aparılan tədqiqatlar göstərir ki, bərpa olunan alternativ enerji mənbələri içərisində yalnız günəş və külək enerjisi, bioloji resurslar tükənməz və təbiətə tam təsirsizdirlər. Alimlər eyni zamanda belə qənaətə gəliblər ki, alternativ enerji təkcə qənaət və ətraf mühitin mühafizəsi üçün vacib deyil. O, ölkələrin, ərazilərin, təsərrüfat sistemlərinin neftdən və onun qiymətindən asılılığını da yumşaldır. Bu kimi səbəblərdən hələ illər öncə İslandiya, Danimarka, ABŞ, Norveç, Almaniya kimi ölkələrdə alternativ enerji istehsalına başlanılıb.

### Alternativ enerji mənbələrinin əldə edilməsi istiqamətində görülən işlər

Ölkəmizdə də bu sahədə müvafiq addımlar atılıb, hüquqi baza yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla «Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı» təsdiq olunub, Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABEMDA) yaradılıb. 2012-2020-ci illər üçün Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair Dövlət Strategiyasının hazırlanması barədə qərardan bir müddət sonra isə ABEMDA-nın əsasnaməsi təsdiq edilib. Bununla da Agentlik Azərbaycanda alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirməyə, alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətin səmərəliliyini təşkil etməyə başlayıb. Görülən tədbirlər çərçivəsində 2011-14-cü illərdə Qobustan Külək (gücü 2,7 MVt) və Günəş (1 MVt) Elektrik stansiyaları, Qobustan Bioqaz İstilik-Elektrik Stansiyası (1 MVt), Xızı rayonunun Şurabad ərazisində (gücü 15 MVt= 5x3 MVt və 25 MVt) 2 ədəd Külək Elektrik Stansiyası tikilib, Azərbaycan Diplomatik Akademiyasının ərazisində istilik nasosları vasitəsilə enerji istehsalı (1,3 MVt), ARDNŞ-nin ekoloji parkında (gücü 60 kVt) çoxsaylı layihələr uğurla başa çatdırılıb. 2012-14-cü illərdə isə Pirəküşkül-1 (Cənub-gücü 60 MVt), Pirəküşkül-2 (Şimal-gücü 150 MVt), həmçinin Xızı rayonunun Şurabad, Sitalçay, Müşfiq qəsəbələrində 4 (33MVt=11x3MVt-25MVt-3,6MVt-9MVt) Külək Elektrik Stansiyası, respublikanın rayonlarında kənd məktəbləri, ictimai iaşə obyektləri, sosial yönümlü obyektlərində 15-20 $m^3$ kiçik həcmli (ümumilikdə gücü 400-500 kVt) bioqaz stansiyaları və sair inşa edilib. Lakin bu son deyil.

### Dünyanın enerjiyə olan tələbatı

«Ekonomiks» Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, iqtisad elmləri doktoru, professor Fikrət Yusifovun sözlərinə görə, hazırda dünyada alternativ mənbələr hesabına enerjiyə tələbatın çox az hissəsi ödənilsə də, bu sahəyə diqqət artır və ənənəvi enerji mənbələrinin getdikcə tükənməsi onların tədricən alternativ enerji mənbələri ilə əvəzlənməsini şərtləndirir: «Son onilliklər ərzində bu istiqamətdə az işlər görülməyib. Buna baxmayaraq, hələlik bu sahədə ciddi nəticələr əldə olunmayıb. Bəzi təxminlərə görə, 2020-ci ilə Yer kürəsində enerjiyə tələbatın 12-15 faizi artıq alternativ enerji mənbələrinin payına düşəcək. Çağdaş dövrümüz alternativ enerji mənbələrinin tapılıb işlənilməsini zəruri edən xarakterə malikdir. Artıq dünyadakı ənənəvi enerji mənbələri (neft, qaz) tükənmək üzrədir. Ona görə də dünya alternativ enerji mənbələrinə möhtacdır. Hazırda dünyanın müxtəlif ölkələrində alternativ enerji mənbələri kimi günəş və külək enerjisindən istifadənin təkmilləşdirilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilir. Eyni zamanda hidromühərriklərin istehsalı sahəsində də müəyyən irəliləyişlər müşahidə olunur. İstilik enerjisi kimi isə əsasən üzvi gübrə kimi işlədilən heyvan və quş peyinindən istifadə olunur.

Azərbaycanda da alternativ enerji mənbələrinin müəyyənləşdirilməsi məqsədilə müxtəlif pilot layihələr həyata keçirilir. Buna əsasən fermer təsərrüfatlarında rast gəlinir. Lakin bütün bunlar hələlik kütləvi və işlək mexanizmlər halına gətirilməyib. Hesab edirəm ki, ənənəvi enerji mənbələri tükəndikcə dünya alternativlər üzərində daha dərindən düşünməyə başlayacaq».

### Gələcəyə ümidli baxış

Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələri üzrə tam miqyasda istifadə məsələləri və strategiyası bilavasitə dövlətin nəzarəti altındadır. Elə bunun nəticəsidir ki, 2020-ci ildə Azərbaycanda ümumən istehsal olunacaq elektrik enerjisinin ən azı 20 faizinin alternativ mənbələr hesabına əldə olunması əsas hədəf kimi seçilib.

Millət vəkili Eldəniz Səlimov bildirib ki, alternativ energetika gələcəyə hesablanmış perspektivli sahədir: «Enerji təhlükəsizlik proqramına uyğun olaraq ölkəmizdə həyata keçirilən siyasət ölkəmizi enerji idxalçısından enerji ixracatçısına çevirmişdir. Azərbaycan enerji təchizatı ilə bağlı xüsusi proqramla bu sahəni inkişaf etdirərək alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə həm təbii sərvətlərimiz olan neft və qaza qənaət edir, həm də ətraf mühitin qorunmasına əhəmiyyətli dərəcədə xidmət göstərir. Alternativ enerji mənbələri olan günəş və külək enerjisindən istifadə tükənməz enerji növüdür.

Son vaxtlar ölkəmizdə günəş batareyalarının tətbiq edilməsi nəticəsində günəş enerjisindən istifadəni genişləndirməklə bu sahəyə xüsusi diqqət yetirilir. Ölkəmizdə günəş batareyalarının istehsalına başlanılmışdır. Günəş enerjisindən istifadəni genişləndirməklə mərkəzdən uzaq ərazilərdə müxtəlif istehsal sahələrinin yaradılması xeyli sadələşəcək».

**F. İKRAMQIZI**

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə torpaq vergisinin bəyannaməsini cari ilin may ayının 15-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
- 2018-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin cari ödəmələrini may ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2018-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisinin bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisinin bəyannaməsini;
- Mədən vergisinin bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 21-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin may ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- Muzdlu işlə əlaqədar 2018-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 2-ci rübü üzrə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir)*.
- Xüsusi notariusların 2018-ci ilin aprel ayı üzrə hesabladığı gəlir vergisi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ötən ilin nəticələrinə görə, Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 22%, cari ilin birinci rübündə 32% artıb.
- Yanvar-mart ayları ərzində Azərbaycana dünyanın 151 ölkəsindən 629,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,4% çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.
- «Şimal-Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Azərbaycan ərazisindən daşınan İran mənşəli neft və neft məhsullarına 50%-dək güzəştli tariflər razılaşdırılıb.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# OECD şurası CRS siyahısını tamamlamağı təklif edib

2018-ci ildə maliyyə məsələlərinə aid informasiyanın mübadiləsi üzrə ümumi standarta daha bir neçə ölkə, o cümlədən Rusiya da qoşulacaq. Aprelin 5-də 80-dən artıq yurisdiksiya öz aralarında vergiyə aid informasiyaların və digər məlumatların mübadiləsində fəal əməkdaşlıq etmək arzusunda olduqlarını bildirmişlər. Bunun sayəsində şirkətlər və ayrıca şəxslər barədə informasiya almaq üçün dövlətlər müstəqil şəkildə tərəfdaş seçmək imkanı qazanacaqlar. İkitərəfli müqavilə imzalamış ölkələrin siyahısı artıq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) rəsmi saytında yerləşdirilmişdir. Bu siyahıda növbəti dəyişiklik isə gələn ay ediləcək.

Rusiya sentyabr ayının 30-da 2017-ci maliyyə ilinə aid informasiyaların 73 ölkə ilə mübadiləsini aparacaq. ABŞ, Honkonq, Latviya kimi bir sıra ölkələr isə Rusiya ilə ikitərəfli maliyyə münasibətləri qurmaqdan imtina edirlər.

Başqa yurisdiksiyalarda olan gizli vergi subyektlərinin aşkar edilməsi zamanı vergiləri və rüsumları ödəməkdən yayınmaya görə, eləcə də kommersiya fəaliyyətinin xaricdə gizlədilməsinə görə hökumətin cərimə tətbiq etmək hüququ vardır.

# Özbəkistanda vergilərin necə ödəniləcəyinə aydınlıq gətirilib

Dövlət Vergi Komitəsi sədrinin birinci müavini Behzad Musayev açıqlama verərək ölkədə hansı vergilərin ləğv ediləcəyini, hansı vergilərin də dərəcələrinin aşağı salınacağını bildirmişdir.

Bir neçə ödənişi birləşdirmək yolu ilə əməkhaqqı fonduna aid verginin sadələşdirilməsi qərara alınmışdır. Bundan əlavə, torpaq vergisinin əmlak vergisi ilə birləşdirilməsi, müəssilər üçün vergi dərəcəsinin aşağı salınması nəzərdə tutulur.

Əlavə dəyər vergisinin dərəcəsi də əhəmiyyətli şəkildə azaldılacaq. Hazırda dərəcəsi 20 faiz olan bu vergi 12 faizə endiriləcək. Lakin bu vergi hamıya tətbiq ediləcək.

Hazırlanan yeniliklərdən biri də fərdi güzəşt və imtiyazlardan imtina edilməsidir. Bu, ölkədə sağlam rəqabətin inkişafı üçün əlavə stimul yaradacaq.

Özbəkistanda vergi islahatlarını işləyib hazırlayanlar əmindirlər ki, görülən tədbirlər əhali və şirkətlər üçün vergi yükünü əhəmiyyətli şəkildə azaldacaq, kiçik və orta bizbnesə aid müəssisələrin əksəriyyətinin fəaliyyətinin kölgədən çıxmasına şərait yaradacaq, eləcə də investisiyalar üçün Özbəkistanın cəlbediciliyini artıracaq.

# Yaponiyada yeni vergi islahatı paketi təsdiq edilib

2017-ci il boyunca müzakirə edilmiş vergi islahatları paketi aprelin əvvəlində ölkə parlamenti tərəfindən təsdiqlənmişdir. Yeni vergi islahatı əməkdaşlarının əməkhaqqını üç faizə qədər artıran şirkətlər üçün korporativ verginin dərəcəsini 25 faizə qədər azaltmağa imkan verir. Sonradan bu verginin dərəcəsinin 20 faizə qədər azaldılması o şirkətlər üçün mümkün olacaq ki, onlar öz məhsuldarlıqlarının artımı üçün investisiya qoyacaqlar. Vergi güzəştləri 2018-ci il aprelin 1-dən qüvvəyə minmişdir və üç il davam edəcəkdir.

Digər islahat tədbirlərinə bu ilin oktyabr ayından tütün məhsullarına tətbiq edilən rüsumun artırılması və gələn ilin yanvar ayından ölkədən gediş üçün adambaşına 1000 yapon yeni (9,39 ABŞ dolları) məbləğində yeni vergi tutulması aiddir.

2020-ci ildən qüvvəyə minəcək şəxsi vergi dəyişikliklərinə ildə 8,5 milyon yendən (79 783 dollar) artıq pul qazanan işçilərdən tutulan vergilərin artırılması, eləcə də şirkət əməkdaşları üçün vergi çıxılmalarının azaldılması daxildir.

# Vahid vergi dərəcəsi qaldırılıb

Belarus Respublikasının paytaxtında fərdi sahibkarlardan və fiziki şəxslərdən tutulan vahid verginin dərəcəsi artırılmışdır. Bu məsələ hələ mart ayından müzakirə edilirdi - qanun layihəsi internet resurslarında nəşr edilmişdi. Müəyyən müddət ərzində dövlət məmurları və parlamentin deputatları bu məsələ ilə bağlı ictimayyətin fikirlərini öyrənə bildilər. Minsk şəhər sovetinin deputatları vahid vergi dərəcəsinin artırılması ilə bağlı qərarı martın 30-da təsdiqləmişdilər və həmin qərar aprelin 15-də rəsmi şəkildə nəşr edilmişdir. Sənəd nəşr edildiyi gündən qüvvəyə minmişdir.

Rəsmi dairələr bu artımın keçənilki inflyasiyanın kompensasiya edilməsi məqsədi daşıdığını bəyan etmişlər. Qeyd edək ki, keçən il ölkədə inflyasiya artımı 6-7 faiz olmuşdu.

# IRS-in saytında nasazlıq yaranıb

ABŞ-ın Daxili Gəlirlər İdarəsinin (IRS) saytında yaranmış texniki nasazlığa görə milyonlarla vergi ödəyicisi vergilərini büdcəyə vaxtında ödəyə bilməmişdir. Buna görə də 2017-ci il üçün bəyannamələrin verilmə müddəti bir gün uzadılmışdır. Nasazlıq hesabatların verilməsi üçün müəyyənləşdirilmiş son tarixdə - aprelin 17-də baş vermişdir. Saytın işində gözlənilməz fasilənin yaranması ilə bağlı konkret səbəb göstərilməmişdir. Vergi orqanlarından bildirilmişdir ki, problem avadanlığın işində çatışmazlıqlar olduğuna görə baş vermişdir.

# Tramp Çinə təzyiqi artırmağı planlaşdırır




«The Wall Street Journal» qəzetinin araşdırmasına əsasən, ABŞ Prezidenti Donald Trampın administrasiyası əlavə idxal rüsumları tətbiq ediləcək Çin mal və xidmətlərinin siyahısını genişləndirməyi planlaşdırır.

Qəzetin istinad etdiyi yüksək vəzifəli şəxslərdən alınmış məlumatda bildirilir ki, ilkin siyahıya paltarlar, ayaqqabı və mobil telefonlar ona görə daxil edilməmişdi ki, bu addımın atılması Amerika istehlakçılarında narazılıq yarada bilərdi. Məsələyə münasibəti soruşulan mütəxəssislər isə hesab edirlər ki, yüksək tələbat olan bu cür məhsullara da əlavə rüsumlar qoyulacaq.

Bundan əlavə, ABŞ Maliyyə Nazirliyi Prezident Trampın tapşırığı ilə Çinin özəl şirkətlərinin ən yeni Amerika texnologiyaları üçün investisiya qoymaq imkanlarını əhəmiyyətli şəkildə azlatmaq üçün tədbirlər planı hazırlayacaq. Bu tədbirlər konkret ticarət sövdələşmələrini, Çin-Amerika birgə müəssisələrini və müəyyən növ əməliyyatlar üçün lisenziyalaşdırma sistemlərini əhatə edəcək.

Tramp administrasiyasının qarşısına qoyulmuş əsas vəzifə Çin Xalq Respublikası sənayesinin dövlət subsidiyalarına əsaslanan ayrı-ayrı sahələrinin dinamik inkişafını ləngitməkdir.

Xatırladaq ki, ABŞ mart ayının 23-dən polad məhsulları üçün 25 faizlik, alüminium məhsulları üçünsə 10 faizlik yeni rüsumlar müəyyənləşdirmişdir. Bu rüsumlar ABŞ-a məhsul göndərən bütün ölkələrə aid edilsə də Avstraliya, Argentina, Braziliya, Kanada, Meksika, Koreya Respubliksı və Avropa İttifaqına üzv ölkələr üçün bu qanunun tətbiqi mayın 1-dək təxirə salınmışdır.

Vaşinqton ilə Pekin arasında gərginliyin növbəti mərhələsi aprelin 3-dən - Prezident Trampın administrasiyasının əlavə 25 faizlik idxal rüsumu tətdiq etməyi planlaşdırdığı digər malların siyahısı açıqlandığı vaxtdan başlamışdır. Buna cavab olaraq Çin Xalq Respublikasının Dövlət Şurası 25 faizlik idxal rüsumu tutalacaq 106 adda məhsulun siyahısını açıqlamışdır. Bu addımın gerçəkləşdirilməsi isə ABŞ hökumətinin Çin malları üçün nəzərdə tutduğu rüsumu həqiqətən də tutub-tutmayacağından asılıdır.

Onu da qeyd etmək yerinə düşər ki, Amerikanın metalların idxalı üçün əlavə rüsum tətbiq etməsindən narazı qalan dövlətlərdən biri də Rusiyadır. Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kirill Dmitriyev bu günlərdə mətbuata açıqlamasında bildirmişdi ki, Rusiya hökuməti ABŞ-ın sanksiyalarına qarşı cavab tədbiri kimi Amerika şirkətləri üçün əlavə vergilər tətbiq edə bilər: «İstisana deyil ki, sanksiyaların yeni silsiləsi başlayacağı təqdirdə Rusiya hökuməti də hər hansı cavab tədbirlərinin görülməsinə ehtiyac olub-olmadığı barədə, o cümlədən sanksiyaların təsirinin aradan qaldırılması üçün Amerika Birləşmiş Ştatlarının şirkətlərinə əlavə vergilər tətbiq etməyin mümkünlüyü barədə düşünəcək».

Amerika tərəfinin sanksiyaları ilə bağlı atılan addımlardan biri budur ki, Rusiya hökuməti sanksiyaların təsirinə məruz qalmış oliqarxlara yardım etmək üçün offşorlar yaratmaq niyyətindədir.

# Rusiyada dərmanlara və ərzaq məhsullarına vergi güzəşti götürüləcək

Hökumət bir sıra kateqoriyalara aid mallar üçün müəyyənləşdirilmiş əlavə dəyər vergisi üzrə güzəştli dərəcələrin ləğvi ilə bağlı müzakirələr aparır. Hazırda 10 faizlik güzəştli dərəcə ərzaq məhsullarına, uşaqlar üçün mallara, kitablara, dərsliklərə və dərmanlara şamil edilir. Qeyd edilmişdir ki, güzəştlərin ləğvi nəticəsində ünvanlı sosial yardımın artırılmasına şərait yaranacaq.

Buna baxmayaraq, bəzi məmurlar ərzaq məhsulları və dərmanlar həyat üçün ən zəruri əhəmiyyət daşıdığına görə bu məhsullar üçün vergi güzəştinin saxlanılmasında israrlıdırlar. Ünvanlı subsidiyaların verilməsi ilə bağlı isə hələlik münasibətlər tam aydın deyil.

«Vedemosti» qəzetində nəşr edilmiş proqnoza əsasən, 2018-2019-cu illər üçün güzəştli dərəcə büdcəyə 600-650 milyard rubla (16,66-18 milyard manat) başa gələcək. 2016-cı ildə Maliyyə Nazirliyi güzəştli əlavə vergisi dərəcəsinin 12 faizə qaldırılması, sonrakı illərdə hər il 2 faiz bəndi artırılması, bundan başqa, əlavə dəyər vergisinin standart dərəcəsinin 18 faizdən 20 faizə çatdırılmasını təklif etmişdi.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Dili yeni sözlərdən - neologizmlərdən, təhriflərdən və s.-dən təmizləmə cəhdində ifrata varmaq; 2.Malın, məmulatın tipi; 3.Bir şeyin son həddi, son həddə çatdırmaq, mübaliğəyə varmaq, həddi keçmək; 4.ABŞ-ın şimal-qərbində şəhər; 5.Ruhlara, magiyaya inanan xalqlarda (əsasən, şimal xalqlarında) sehrbaz, ovsunçu, cadugər; 6.«Yol əhvalatı» filmində Zümrüd obrazını canlandıran aktrisanın adı; 9.Qırtıckimilər fəsiləsinə aid bitki cinsi; 13.Beynin fəaliyyət normasının minimal səviyyəyə enməsi və ətraf aləmə reaksiyaların azalması ilə müşayiət olunan təbii fizioloji proses; 15.İnsan və heyvan mayası; 16.İslam dininin şiə qanadında qəbul edilən dini rəhbərlik və siyasi idarə üsulu; 17.Kompressor, mühərrik və turbinləri hərəkətə gətirən hərəkətsiz hissə; 18.Böyük Britaniyada şəhər; 20.Qrupda, kollektivdə hamının liderliyini qəbul etdiyi nüfuzlu şəxs; 21.XIII e.ə. - V b.e. Britaniya əhalisinin əsas hissəsini təşkil edən kelt tayfası və bu tayfanın nümayəndəsi. **Soldan sağa:** 1.Başqasının əsərini öz əsəri kimi verən və ya müəllifi göstərilmədən başqasının əsərindən istifadə edən şəxs; 5.Bir çox Şərq ölkələrində hökmdar titulu; 7.Natiqlik nəzəriyyəsi, natiqlik sənəti haqqında elm; 8.Müsəlmanlarda camaat namazına başçılıq edən, habelə bir məhəllədə nikah, ölüm və s. dini işlərə baxan ruhani; 10.İslam dinində əldə edilmiş mal və pulun halallığını təmin etməkdən ötrü onun dini ehtiyaclar və fəqir-füqəraya verilmək üçün ayrılan hissəsi (dini vergi); 11.Duza və sirkəyə qoyulmuş tərəvəz, şoraba, tutma; 12.Böyük Britaniyada çay; 14.Fransız çörəyi; 19.Qiymətli mineral daş. Astmaya, revmatizmə, diş ağrısına, zəhərlənmələrə, yaraların sağalmasına kömək edən sağlamlıq daşı; 21.E.ə. II minilliyin əvvəllərində Mesopotamiyada mövcud olmuş şəhər-dövlət; 22.Həzm kanalının ən geniş hissəsini təşkil edən orqan; 23.Ellinizmin və Roma fəlsəfəsinin mühüm cərəyanlarından biri; 24.Təlim məqsədilə odlu və ya pnevmatik əl silahlarından nişana atmaq üçün xüsusi avadanlıqla təchiz edilmiş yer, bina; 25.Qarın boşluğu divarlarını və üzvlərini örtən seroz qişasının iltihabı.



Magiyaya inanan xalqlarda (əsasən, şimal xalqlarında) sehrbaz, ovsunçu, cadugər

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Adonis; 2.Butilen; 3.Səmum; 4.Bizlan; 5.Dolma; 6.Barxan; 9.Marş; 13.Azot; 15.Admiral; 16.Oktant; 17.Balina; 18.Unitas; 20.Palaz; 21.Ureki. **Soldan sağa:** 1.Abbasabad; 5.Dəb; 7.Optimizm; 8.Alar; 10.İslam; 11.Alabama; 12.İnnab; 14.Aşpaz; 19.Koppola *(Frensis Ford)*; 21.Usman; 22.Ayla; 23.Vineqret; 24.Toz; 25.Qladiolus.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# «Synergy Baku» beynəlxalq turnirə qələbə ilə başladı

«Synergy Baku» kontinental velosiped komandası Türkiyədə keçirilən «Tour of Mersin» yarışına uğurla başlayıb. Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı 4 günlük yarışının ilk mərhələsi Azərbaycanın elit yığması və «Synergy Baku»nun üzvü Kiril Pozdnyakovun qələbəsi ilə başa çatıb.




123 kilometr məsafəni hamıdan tez başa vurmaqla finiş xəttini birinci keçən təmsilçimiz bununla həm də ümumi təsnifatda liderliyi ələ keçirib. Mərhələ qalibiyyəti, həmçinin, velosipedçimizə 7 reytinq xalı da qazandırıb. Xatırladaq ki, Kiril Pozdnyakov bu ilin fevralında Türkiyədə keçirilən birgünlük Alanya Qran-Prisində də qələbə sevinci yaşamışdı.

«Synergy Baku» komandası «Tour of Mersin» yarışında Elçin Əsədov, Kərim Şirəliyev, Kiril Pozdnyakov, Aleksandr Polivoda, Telman Vəliyev, Musa Mikayılzadə və Kənan Qəhrəmanlı ilə təmsil olunur.

# Azərbaycan millisi Bakı turnirində ilk qızıl medalını qazanıb



Aprelin 23-də Milli Gimnastika Arenasında keçirilən gənc gimnastların iştirak etdikləri «AGF Junior Trophy» beynəlxalq turnirinin birinci günündə 2003-2005-ci il təvəllüdlü gimnastların yaş qrupunda komandalar arasında qaliblər müəyyənləşib. Bədii gimnastika üzrə Azərbaycan millisinin üzvləri Dərya Farşbafşəhriyari və Arzu Cəlilova fəxri kürsünün üçüncü pilləsinə qalxıblar. Gimnastımız Arzu Cəlilova isə «Ən yüksək icra xalına görə» hakimlər briqadası tərəfindən «AGF Trophy» mükafatı ilə təltif edilib.

Beynəlxalq turnirin ikinci gününə fərdi yarışlarla start verilib. Turnirdə halqa ilə yarışların qalib və mükafatçıları məlum olub. Azərbaycan təmsilçisi Dərya Farşbafşəhriyari 15.600 xal toplayaraq üçüncü yerin sahibi olub. Nərminə Səmədova isə top ilə yarışların gümüş mükafatını qazanıb. Qızıl medalın sahibi Rusiya idmançısı Daria Trubnikova olub. İlk üçlüyü bolqarıstanlı Tatyana Volozhanina qapayıb.

Həmin gün gimnastların fərdi çıxışlar üzrə qalib və mükafatçıları məlum olub. Azərbaycan təmsilçisi Dərya Farşbafşəhriyari 15.600 xal toplayaraq üçüncü yerin sahibi olub. Top üzrə yarışlarda Azərbaycan təmsilçisi Nərminə Səmədova 16.050 xal toplayaraq turnirin gümüş medalına sahib olub. Rusiya gimnastı Darya Trubnikova 17.650 xal toplayaraq qızıl medala layiq görülüb. Bolqarıstan təmsilçisi Tatyana Volozhanina 15.850 xal toplayıb və bürünc medala layiq görülüb.

Turnirin ikinci günündə Azərbaycan millisi aktivinə ilk qızıl medalını daxil edib. Gimnastımız Arzu Cəlilova lentlə hərəkətlərdə 15.850 xal toplayaraq birinci yerin sahibi olub. Gümüş medalı rusiyalı Lala Kramarenko, bürünc mükafatı isə bolqarıstanlı Tatyana Volozhanina qazanıb.

# Məktəblilərin velosiped idman növünə marağı artır

Velosiped idman növünün məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirlərinin rayondaxili mərhələsi davam edir. Bu münasibətlə Bakı şəhəri, Nərimanov rayonu 82 nömrəli tam orta məktəbin idman meydançasında keçirilən yarışda 21 məktəbdən 130 şagird iştirak edib. Yarışın nəticəsinə əsasən, 212 nömrəli məktəbin komandası birinci olub. 45 və 178 nömrəli tam orta məktəblərin komandaları ilk üçlükdə qərarlaşıblar. Qaliblər kubok və diplomlarla təltif ediliblər.

Kütləvi idman tədbirlərinin keçirilməsində əsas məqsəd velosiped idman növünü məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, yeniyetmələri sağlam həyat tərzinə cəlb etməkdir. Yarışlar Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri, Abşeron, İsmayıllı, Zaqatala rayonları əhatə olunmaqla Azərbaycan Velosiped İdmanı Federasiyasının, Respublika Olimpiya Velosiped Məktəbinin dəstəyi, «Təhsil» Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilir. İyunun 2-dək davam edəcək kütləvi idman tədbirlərinə 4 mindən çox məktəblinin qatılacağı gözlənilir.

Yarışlar iyunun 5-9-da Bakıda keçiriləcək velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatına dəstək məqsədilə təşkil olunub.

# Bolqarıstanlı qrossmeyster liderdir

SHAMKIR 2018 Chess in the memory of VUGAR GASHIMOV

Aprelin 23-də Şəmkirdə V Vüqar Həşimov Memorialında beşinci turun görüşləri keçirilib.

Bu turda norveçli dünya çempionu Maqnus Karlsen Polşa təmsilçisi Radoslav Voytaşeko, Bolqarıstan şahmatçısı Veselin Topalov isə çexiyalı David Navaraya qalib gəlib. Turun digər partiyalarında Şəhriyar Məmmədyarov hollandiyalı Aniş Giri ilə, Teymur Rəcəbov Çin idmançısı Dinq Lirenlə, Rauf Məmmədov isə rusiyalı Sergey Karyakinlə heç-heçə edib.

Hesabında 3,5 xal olan V.Topalov liderliyini davam etdirir. M.Karlsen 3 xalla ikinci yerdə qərarlaşıb. T.Rəcəbov, R.Məmmədov, A.Giri, D.Liren, S.Karyakin 2,5 xalla 3-7-ci, Ş.Məmmədyarov, D.Navara və R.Voytaşek isə 2 xalla 8-10-cu pilləni bölüşürlər.

mozaika

texnologiya

## Uşaqlar üçün...



«Microsoft» şirkətinin mütəxəssisləri tərəfindən «Project Zanzibar» texnologiyası hazırlanıb. Yeni texnologiya fiziki obyektləri identifikasiya etməyə və izləməyə imkan verən kiçik elastik xalçadan ibarətdir. «Zanzibar» uşaqlara öz oyuncaqlarını fiziki reallıqdan rəqəmsal dünyaya «daşımağa» və onların səsli, vizual və digər xüsusi effektlər sayəsində necə canlandığını görməyə imkan verir.

Xalça fərdi kompüterə və ya planşetə qoşulduqdan sonra qurğu tərəfindən qəbul edilən obyektin təsviri ekranda görünür. Xalça üzərində bir neçə obyekt olduqda «Zanzibar» hər bir predmetin yerdəyişməsini izləyir və onları dəqiqliklə müəyyən edir.

Layihənin təqdimatı aprelin sonunda Kanadanın Monreal şəhərində keçiriləcək «Hesablama sistemlərində insan amili» konfransında (ACM CHI-2018) təqdim olunacaq.

## İnsanın fikirlərini «eşidən» cihaz

ABŞ-ın Massaçussets Texnologiya İnstitutundan olan mühəndislər qrupu insanın düşüncələrini «eşidən» «AlterEgo» cihazını hazırlayıblar. Sonluqları istifadəçinin çənəsinə doğru uzanan, ayrı-ayrı sözlərin düşüncə ilə tələffüz edilməsi ilə korrelyasiya edilən qulaqlıqlar sifət və beyin əzələlərinin zəif hərəkətlərini oxuyur və alınmış informasiyanı radiosiqnala çevirir.

«AlterEgo» istifadəçi ilə kəllə sümükləri üzrə qulağa ötürülən və səs siqnalı kimi qəbul edilən vibrasiyaların köməyi ilə ünsiyyət qurur. İstifadəçi «vaxt» sözünü «düşünərək» sorğu göndərir, cavab istifadəçinin qulaqlarına dərhal ötürülür və ətrafdakı şəxslər tərəfindən eşidilmir.

Qurğu hələlik düşünülmüş az sayda əmrləri qəbul edir. Düşüncələri tanıma dəqiqliyi 92 faizə qədərdir. Maşın təlimi alqoritmi nə analiz üçün daha çox material təqdim etməklə bu faizin yüksəldilməsi nəzərdə tutulur. Bunun üçün sınaqlar zamanı daha çox könüllüyə ehtiyac olacağı bildirilir.



Cihazın yaradıcıları güman edirlər ki, «AlterEgo» hələlik hazırlanma mərhələsində olan neyrointerfeysləri əvəz edə biləcək.

layihə

## «Google» tarixi abidələri qoruyacaq

«Google» şirkəti ən yeni texnologiyalardan istifadə etməklə tarixi abidələrin qorunması üzrə layihəyə başlayacaq. Tezliklə şəbəkədə məşhur tikililərin ilk 3D-modelləri yerləşdiriləcək.

Şirkət «Open Heritage» layihəsini «Google Arts & Culture» proqramı əsasında «CyArk» şirkəti ilə birgə hazırlayır. Mütəxəssislər üçölçülü modelləri lazer skanerlərinin köməyi ilə yaradacaq, sonra proqramın bazasına yükləyəcəklər. 3D-modellərin arxivinə mobil proqram və internet vasitəsilə daxil olmaq mümkün olacaq. İstehsalçıların sözlərinə görə, müasir texnologiyalar tarixi abidələri ətraflı təsvir etməyə imkan verir. 3D-modellər, hətta rəng və tekstur kimi ən xırda detalları belə ötürə biləcək.

mədəniyyət

## «Dastan gecələri»



Beynəlxalq Muğam Mərkəzində «Dastan gecələri» adlı möhtəşəm layihənin ilk tədbiri olub - «Alı xan və Pəri xanım» dastanı tamaşaçılara təqdim edilib. Layihə Beynəlxalq Muğam Mərkəzinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilir.

Tədbirdə Beynəlxalq Muğam Mərkəzinin direktoru, xalq artisti Murad Hüseynov, AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov çıxış edərək aşıq sənətinin təbliği baxımından layihənin əhəmiyyəti barədə danışıblar. Bildirilib ki, aşıq sənəti Azərbaycan xalq yaradıcılığının qədim tarixi köklərə malik özünəməxsus hadisəsidir. Bu sənət müxtəlif mərhələlərdən keçib, xalqımızın bir çox qeyri-maddi mədəni dəyərlərini özündə cəmləşdirib. Azərbaycan aşıq sənəti 2009-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Qeyd olunub ki, dastan ifaçılığı barədə geniş təsəvvür yaratmaq və onu təbliğ etmək məqsədilə həyata keçirilən layihə həm də bugünkü Azərbaycan aşıq sənətinin bədii-texniki və melopoetik xüsusiyyətlərinin zənginliyini göstərməyə xidmət edir. Layihə çərçivəsində dekabrın 25-dək müasir aşıq sənətinin tanınmış nümayəndələrinin ifasında 7 dastan sənətsevərlərə təqdim olunacaq.

Daha sonra Azərbaycan Aşıqlar Birliyinin üzvü Aşıq Qələndər Zeynalovun ifasında «Alı xan və Pəri xanım» dastanı təqdim olunub. Aşığı balabanda Əməkdar Mədəniyyət İşçisi Sərdar Məmmədli müşayiət edib. Ailə-məişət mövzusunda olan dastan tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

cəmiyyət

## Gözlənilməz təhlükə



Elm adamları insan DNT-si ilə 99 faiz uyğun gələn böyük meymunların həyatı üçün gözlənilməz təhlükə aşkarlayıblar. Smartfonların və oyun konsollarının istehsalı zamanı istiyədavamlı koltan mineralı (kolumbit-tantalit) istifadə olunur. Bu mineralın aşkarlanmış ehtiyatının 80 faizi Afrikada, Konqo Demokratik Respublikasının meşələrindədir. İnsanabənzər meymunlar da həmin ərazilərdə yaşayırlar.

Bioloq Kreyq Stenford deyir: «Yerli sakinlər çaylarda çox aşağı texnoloji səviyyədə koltanı qızıl kimi yuyurlar. Onlara bu minerallara görə pul ödənmir, əvəzində ov və ərzaq üçün tüfəng və patronlar verilir. Nəticədə onlar meymunları ovlayırlar».

Ağıllı telefonlar, həmçinin heyvan ticarətində dəyişikliyə də səbəb olub.

Phys.org nəşri tədqiqatçı Ceyms Askyunun sözlərini yayımlayıb: «Siz İnstagramda bir oranqutan seçə və sadəcə 50 dollar qarşılığında ala bilərsiniz».

Heyvanlar brakonyerlər tərəfindən və böyüdükdən sonra ekzotik ev heyvanlarının icarəyə verildiyi heyvan ticarəti mərkəzlərindən gətirilirlər.

**Müdriklər deyib ki...**

*«Hünər yüksəklərə qalxmaqda deyil, qalxdığın yüksəkliklərdə mətanətlə dayanmaqdadır».*
*Viyam Şekspir (1564-1616)*

